QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 191 (6155) 28 oktyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Mehriban Əliyeva Ermənistanın Bərdəyə raket hücumu nəticəsində həlak olanların yaxınlarına başsağlığı verib



Bu gün Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları zonasından kənarda yerləşən Bərdə şəhərini raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozublar. "Smerç" qurğusundan buraxılmış kasetli raketlərlə atəş nəticəsində dörd mülki şəxs, o cümlədən yeddi yaşlı...

Bax 2

## İlham Əliyev: "Hər şey Ermənistanın özünü necə aparacağından asılı olacaq"

*Prezident İlham Əliyev İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verib*



Bax 2

## Putin və Ərdoğan Qarabağ məsələsini müzakirə ediblər



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. AZƏRTAC Türkiyə KİV-lərinə...

Bax 2

## Anar Eyvazov: Ermənistan silahlı qüvvələrinin bölmələri humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozub



Ötən müddət ərzində humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozan Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun...

Bax 4

## Hikmət Hacıyev: "Ermənistanın kasetli bombalardan istifadə etməsi mülki əhali arasında itkinin çox olmasına hesablanıb"

Bax 4



Ermənistan Ordusu humanitar atəşkəsi kobud şəkildə pozaraq Azərbaycan ərazilərini, mülki vətəndaşları atəşə tutulmaqda davam edir. Bu, onu göstərir ki, Ermənistan tərəfinin humanitar atəşkəs barədə dedikləri riyakarlıqdan başqa bir...

## Növbəti erməni vəhşiliyi: Bərdədə həlak olan mülki şəxslərin sayı 4-ə çatıb



Ermənistan silahlı qüvvələrinin saat 16 radələrində Bərdə rayonunun Qarayusifli kəndini müxtəlif istiqamətlərdən ag?ır artilleriya atəşinə tutması nəticəsində həlak olan mülki şəxslərin sayı dördə çatıb...

Bax 4

### Bərdədə həlak olan 8 yaşlı Aysunun azyaşlı bacısı da yaralanıb



Bax 6

### "Paşinyanı artıq heç bir siyasi partiya, siyasi şəxslər dəstəkləmir"



Bax 4

### Azərbaycan ordusu bir ay ərzində 4 şəhər, 4 qəsəbə, 165 kənd azad edib!



Bax 5

# İlham Əliyev: "Hər şey Ermənistanın özünü necə aparacağından asılı olacaq"

*Prezident İlham Əliyev İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verib*



***"Biz onları nəyin bahasına olsa, qaytaracağıq. Ya dinc yolla, ya da müharibə yolu ilə, lakin qaytaracağıq. Buna görə düşünürəm ki, Ermənistan rəhbərliyi bu barədə ciddi düşünməli və düzgün addım atmalıdır"***

***Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***

*- Hər vaxtınız xeyir, cənab Prezident. Xahiş edirəm deyin, yeni sülh barışığı, bu yeni atəşkəs qüvvədə olacaqmı? Səhv etmirəmsə, bu, artıq üçüncü atəşkəsdir.*

- Hər şey Ermənistanın özünü necə aparacağından asılı olacaq. Ona görə ki, ilk iki atəşkəs məhz Ermənistan tərəfindən pozulub. Humanitar mülahizələrə əsaslanan birinci atəşkəsdən sonra 24 saat ərzində Ermənistan atəşkəsi pozdu. Özü də vəhşicəsinə, gecə vaxtı Gəncə şəhərinə ballistik raket atmaqla. Birinci atəşlər nəticəsində 10 nəfər həlak oldu, xeyli insan yaralandı. Sonra onlar daha bir dəfə, yenə gecə vaxtı Gəncəyə zərbə endirdilər. Bu dəfə qurbanların sayı daha çox oldu. Ona görə də biz cavab verməyə məcbur idik.

İkinci atəşkəsə gəldikdə isə bizdə atəşkəsin Ermənistan tərəfindən pozulmasının xronologiyası var. Onlar təyin edilmiş atəşkəs saatından düz 2 dəqiqə sonra atəşkəsi pozdular. Bu gün saat 08.00-dan yeni atəşkəs qüvvəyə minib. İndi Bakıda səhər saat 10.00-dır. Saat 8-dən təxminən 3-4 dəqiqə sonra Tərtər şəhərinə yenidən bir neçə mərmi atılıb. Biz buna cavab vermirik. Ümid edirik ki, bu, təsadüfən olub. Lakin əgər bu, davam etsə, təbii ki, biz adekvat cavab verməyə məcbur olacağıq.

*-Cənab Prezident, sentyabrın axırlarında Sizin hərbi əməliyyatlara başlamağınıza, əslində, nə səbəb olmuşdu? Nə üçün belə oldu?*

-Bu, siyasi və hərbi xarakterli hadisələrin gedişi ilə bağlıdır. Əsas səbəb ondan ibarətdir ki, Ermənistan danışıqlar prosesini hər vasitə ilə pozmaq istəyirdi. Ermənistanın yeni hökuməti dəfələrlə bəyan etmişdi ki, baza prinsipləri ondan ötrü qəbuledilməzdir, o, işğal edilmiş ərazilərin bircə qarışını belə qaytarmağa hazırlaşmır. Bu isə baza prinsiplərinə ziddir. Baş nazir bəyan edirdi ki, Azərbaycan danışıqları Ermənistan ilə deyil, qondarma "Dağlıq Qarabağın" rəhbərləri ilə aparmalıdır. Bu, həm bizim üçün, həm də ATƏT-in Minsk qrupu üçün qəbuledilməz idi. Baş nazir, həmçinin bəyan edirdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bununla da o, danışıqlar prosesini tamamilə pozmuş oldu. Son bir ildə praktiki olaraq, danışıqlar aparılmayıb və Ermənistan bunun təqsirini bizim üzərimizə yıxmaq üçün üç dəfə təxribat cəhdi göstərdi - iyul ayında sərhəddə, avqust ayında təxribat qrupu göndərildi və sentyabr ayında bizim dinc şəhərlər atəşə tutuldu. Onlar yəqin düşünürdülər ki, biz bu dəfə də təmkin göstərəcəyik, lakin belə olmadı. Biz onlara elə cavab verdik ki, indi onlar təəssüflənirlər.

*- Elə isə Siz öz hərbi əməliyyatlarınızı hansı şərtlər daxilində dayandırmağa razı olacaqsınız? Siz dəfələrlə demisiniz ki, Ermənistan tərəfindən konstruktiv yanaşma zəruridir. Konstruktiv yanaşma necə olmalıdır?*

- Konstruktiv yanaşma ondan ibarət olmalıdır ki, onlar baş nazirin şəxsində açıq bəyan etməlidirlər ki, baza prinsiplərini qəbul edirlər. Baza prinsipləri isə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ətrafında yerləşən yeddi rayonun Azərbaycana qaytarılmasını və azərbaycanlı məcburi köçkünlərin Dağlıq Qarabağ ərazisinə, o cümlədən Azərbaycanın qədim Şuşa şəhərinə qayıtmalarını nəzərdə tutur. Prinsip etibarilə bu yanaşmalar BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əsaslanır, həmin qətnamələr də praktiki olaraq, bunu tələb edir. Lakin Ermənistanın baş naziri deyəndə ki, onlar bircə qarış belə torpağı bizə verməyəcəklər, Ermənistanın müdafiə naziri bəyan edəndə ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə başlayacaq və bizə qarşı təcavüz həyata keçiriləndə, bu, əlbəttə, konstruktiv yanaşma deyil. O deməlidir ki, bəli, işğal edilmiş ərazilər Azərbaycana qaytarılacaq, bəli, azərbaycanlılar Dağlıq Qarabağa, o cümlədən Şuşaya qayıdacaqlar, bax, onda biz çox tezliklə razılığa gələrik.

*- Cənab Prezident, bir məsələ çox mübahisəlidir. Bəzi ölkələr, təkcə Ermənistan deyil, o cümlədən Fransa da Sizi və Türkiyəni Suriyadan minlərlə muzdlunun Türkiyədən keçməklə Qarabağa göndərilməsində ittiham edirlər. Siz bu cür ittihamlara necə cavab verərsiniz, Azərbaycan ərazisində türkiyəli döyüşçülərin və Türkiyəyə məxsus hərbi təyyarələrin olması barədə ittihamlara Siz necə cavab verərsiniz?*

- Mən bu suala bir neçə dəfə cavab vermişəm, bir də cavab verərəm. Əvvələn, bizə bu cür əsassız ittihamları cəmi iki ölkə təqdim edib - Fransa və Rusiya. Fransa Prezidentin şəxsində, Rusiya isə Xarici Kəşfiyyat İdarəsinin rəhbərinin şəxsində. Hərbi əməliyyatlar başlanandan dərhal sonra bizə bu cür ittihamlar təqdim edilib. Lakin artıq bir aya yaxın vaxt keçib, bizə heç bir dəlil, heç bir sübut təqdim edilməyib. Üstəlik, ilk dəfədir deyirəm, mən Fransa tərəfə müraciət etmişəm ki, müvafiq xidmətlərin müvafiq rəhbərləri görüşsünlər, söhbət etsinlər və bizə sübutlar təqdim etsinlər. Bizə heç nə təqdim edilməyib. Ona görə bütün bunlar insunasiyadır. Bütün bunlar Azərbaycana qara yaxmaq cəhdidir. Mən təəssüflənirəm ki, bu cür əsassız ittihamlar həmsədr ölkələrdən daxil olur. Onlar obyektiv olmalıdırlar. Axı, biz Rusiyadan Ermənistana nə qədər silah göndərilməsi barədə hər gün danışmırıq. Axı, biz demirik ki, bu gün kənardan kömək olmasa Ermənistan işğal edilmiş ərazilərdə bircə gün də dayana bilməzdi. Həm siyasi dəstək, həm hərbi, həm də mənəvi dəstək, özü də bunlar birtərəfliyə riayət etməli olan ölkələr tərəfindən gəlir. Buna görə biz bu insunasiyaları qətiyyətlə rədd edirik, buna ehtiyac yoxdur. Bizim nizami ordunun 100 min döyüşçüsü var. Zərurət yaranarsa, biz ümumi səfərbərlik elan edərik. Yeri gəlmişkən, Ermənistandan fərqli olaraq, biz bunu elan etməmişik. Ona görə bütün bunlar yalan və böhtandır. Əməliyyatlarda Türkiyə qoşunlarının iştirakına gəldikdə isə bu da yalandır. Heç bir sübut yoxdur. Türkiyənin F-16 təyyarəsinin Azərbaycan ərazisində olması onun nəticəsi olub ki, münaqişə ərəfəsində bizdə birgə hərbi təlimlər keçirilib. Axı, biz demirik ki, Ermənistan ərazisində Rusiyanın neçə MiQ-29, Su-30 təyyarəsi var. Axı, biz demirik ki, Ermənistanda, Gümrüdəki bazada Rusiyanın 5 minlik qoşunu var və bizdə olan məlumata görə oradan vaxtaşırı olaraq Ermənistan silahlı qüvvələrinə təchizat göndərilir və bizim barəmizdə deyilənlərdən fərqli olaraq, bunlar faktdır. Ona görə də bizi ittiham etmək istəyənlərə təklif edirəm ki, yalan informasiyaya əsaslanan bu cür tez-tələsik nəticələr çıxarmazdan əvvəl özlərinə baxsınlar.

Ardı Səh. 3

## Mehriban Əliyeva Ermənistanın Bərdəyə raket hücumu nəticəsində həlak olanların yaxınlarına başsağlığı verib



Bu gün Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları zonasından kənarda yerləşən Bərdə şəhərini raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozublar. "Smerç" qurğusundan buraxılmış kasetli raketlərlə atəş nəticəsində dörd mülki şəxs, o cümlədən yeddi yaşlı qız həlak olub. Dördü uşaq olmaqla on dörd nəfər ciddi xəsarət alıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında edilən paylaşımda deyilir: "Silahlı münaqişələr zamanı mülki şəxslərin qətlə yetirilməsi 1949-cu il Cenevrə Konvensiyalarının və bütövlükdə beynəlxalq humanitar hüquq normalarının ən kobud şəkildə pozulması deməkdir. Erməni təcavüzkarlarının əli ilə daha neçə günahsız insan həlak olmalıdır ki, dünya birliyi bu cinayətləri dinməzcə seyr etməyə son qoysun? Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmalarını arzulayıram. Biz öz torpağımızı təcavüzkarlardan azad edəcəyik və bu cinayətlərə son qoyacağıq. Uca Tanrı Vətənimizi qorusun!"

## Putin və Ərdoğan Qarabağ məsələsini müzakirə ediblər



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. AZƏRTAC Türkiyə KİV-lərinə istinadla xəbər verir ki, dövlət başçıları Suriya böhranı və Dağlıq Qarabağdakı vəziyyəti müzakirə ediblər.

# İlham Əliyev: "Hər şey Ermənistanın özünü necə aparacağından asılı olacaq"

*Prezident İlham Əliyev İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verib*

Əvvəli Səh. 2

***- Cənab Prezident, sonuncu sual bu və ya digər dərəcədə bizim ölkəyə - İtaliyaya da aiddir. Siz yəqin bilirsiniz ki, Avropada ərazi mübahisələrinin və ya regional separatizmin dinc yolla nizamlanmasına dair çoxlu uğurlu nümunələr var. Belə nümunələrdən biri bizdə - İtaliyadadır. Bu, Alto-Adice (Zyudtirol) regionudur. Sizə elə gəlmirmi ki, İtaliya Qarabağın statusunun həll edilməsi üçün öz təcrübəsi ilə konkret kömək edə bilərdi. Xüsusən ona görə ki, İtaliya həm Sizinlə, həm də Ermənistanla çox səmimi, sıx, güclü siyasi, mədəni əlaqələrə malikdir.***

- Bəli, mən hesab edirəm ki, İtaliya münaqişənin nizamlanması işində çox mühüm rol oynaya bilər. Qeyd etməliyəm ki, Minsk qrupu yaradılan vaxt, çoxdan, təqribən 30 il bundan əvvəl bu Minsk qrupunun rəhbəri məhz İtaliya nümayəndəsi, italiyalı diplomat idi. Bu, həmsədrlər təsisatı yaradılandan əvvəl idi. Həmsədrlər təsisatı yaradılandan sonra Minsk qrupu, əslində, ölkələr qrupu kimi heç bir fəaliyyət göstərməyib, çünki həmsədrlər bu fəaliyyəti özlərinin inhisarına götürüblər. Bunun nəyə gətirib çıxardığını görürük. 28 il ərzində heç bir irəliləyiş olmayıb, heç bir nəticə yoxdur, yalnız vədlər, yalnız bürokratik prosedurlar var və bu gün bizə belə gəlir ki, əslində, həmsədrlərin fəaliyyəti münaqişənin həllinə deyil, onun dondurulmasına yönəlmişdi. İtaliyada nışdığınız regiona da, Aland adalarına da səfər edirdilər. Lakin Ermənistan bunu həmişə qəti surətdə rədd edirdi. Onlar hesab edirdilər ki, dünyanın aparıcı ölkələrinin hərbi, siyasi, iqtisadi dəstəyinə güvənərək bizim əraziləri əbədi işğal edə biləcəklər, lakin onlar kobud səhv edirdilər. Bu gün biz özümüzün haqlı olmağımızı döyüş meydanında sübut edirik. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini həyata keçiririk və beynəlxalq hüququ bərpa edirik.

**"Axı, biz Rusiyadan Ermənistana nə qədər silah göndərilməsi barədə hər gün danışmırıq. Axı, biz demirik ki, bu gün kənardan kömək olmasa Ermənistan işğal edilmiş ərazilərdə bircə gün də dayana bilməzdi"**

mövcud olan modelə gəldikdə isə biz onu öyrənmişik. Biz Aland adaları modelini, muxtar qurumların digər uğurlu təcrübələrini də öyrənmişik. Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli dövlətdir. Yəqin siz bilirsiniz, Ermənistanda əhalinin 99 faizi ermənilərdir. Buna görə çox müsbət olan bu özünüidarə təcrübəsi bizim halda da tətbiq edilə bilərdi. Yeri gəlmişkən, mənim bildiyimə görə 1990-cı illərin ortalarında bu cür təkliflər olub. Hətta qeyri-hökumət təşkilatlarının nümayəndələrindən, politoloqlardan ibarət qruplar sizin ölkəyə də, haqqında da-

***- Cənab Prezident, ən sonuncu sual: bir ildən sonra biz bu münaqişədə hansı səviyyədə olacağıq? Münaqişənin həlli olacaqmı? Yoxsa bu, münaqişənin həlli olacaq?***

- Bilirsiniz, bu bir ay ərzində mən, demək olar ki, hər gün xarici kütləvi informasiya vasitələrinin nümayəndələri ilə ünsiyyətdə oluram və Azərbaycan xalqına öz müraciətlərimdə bizim mövqeyimizi həmişə dəqiq şərh edirəm. Biz Qarabağ regionunun, - təkcə Dağlıq Qarabağın deyil, həm də Aran Qarabağın, çünki Qarabağ Azərbaycanın böyük bir hissəsidir, - gələcəyini həm oraya qayıtmalı olan azərbaycanlıların, həm də hazırda orada yaşayan ermənilərin dinc yanaşı yaşayacaqları firavanlaşan, dinc bir ərazi kimi görürük. Bizim mövqeyimiz bundan ibarətdir. Hesab edirəm ki, tərəflərin qarşılıqlı xoş məramı olsa buna nail olmaq mümkündür. Ona görə ki, axı, bu gün Bakıda və Azərbaycanın digər şəhərlərində minlərlə erməni yaşayır. Həm Rusiyada, həm də Gürcüstanda azərbaycanlılar və ermənilər biznesə malikdirlər, qarışıq ailələr var. Buna görə də düşünürəm ki, barışıq mümkündür, sadəcə, Ermənistan rəhbərliyi işğalçı siyasətdən imtina etməlidir. Əgər belə olsa biz öz investisiyalarımızla və ölkənin yenidən qurulması üzrə təcrübəmizlə bu regionu dünyanın ən firavan regionlarından birinə çevirə bilərik. Lakin bundan ötrü müharibənin nəticələri aradan qaldırılmalıdır. İşğal aradan qaldırılmalıdır, azərbaycanlılar əsrlərboyu yaşadıqları torpaqlara qayıtmalı və erməni əhali ilə qonşuluqda, razılıq şəraitində yaşamalıdırlar. Bu, asan olmayacaq, buna vaxt lazım gələcək. Lakin Avropa ölkələrinin vuruşduğu İkinci Dünya müharibəsindən sonra ölkələrin necə barışdığını bilirik - bugünkü qonşular o vaxt çox insanı qətlə yetiriblər. Lakin bu, daim yaddaşda yer tutmamalı, nifrət doğurmamalıdır. Erməni ideoloqları bu gün bununla məşğuldurlar. Xoş məram göstərilməlidir. Əgər belə olsa, mənim dediyim olacaq. Əgər olmasa, biz hər bir halda bu torpaqları qaytaracağıq. Döyüş meydanında bugünkü vəziyyət də bunu göstərdi. Biz onları nəyin bahasına olsa, qaytaracağıq. Ya dinc yolla, ya da müharibə yolu ilə, lakin qaytaracağıq. Buna görə düşünürəm ki, Ermənistan rəhbərliyi bu barədə ciddi düşünməli və düzgün addım atmalıdır.

***- Cənab Prezident, çox sağ olun və italyanlar demişkən, bono fortuno.***

- Siz də sağ olun. Təşəkkür edirəm.

***- Xudahafiz.***

- Xudahafiz.

## Beynəlxalq media mütəxəssisi Dan Meyson: Azərbaycanlılar niyə Qarabağa - evlərinə qayıtmaq istəyir?

Böyük britaniyalı beynəlxalq media mütəxəssisi Dan Meyson "Azərbaycanlılar niyə Qarabağa - evlərinə qayıtmaq istəyir?" sərlövhəli məqalə yazıb. Onun sosial şəbəkə hesabından paylaşdığı analitik xarakterli məqalədə daha çox Azərbaycanın Qarabağ müharibəsindən sonrakı real həyatı əks olunub.

AZƏRTAC xəbər verir ki, Dan Meysonun "Azərbaycan dilində heç bir söz Qarabağ qədər ağrı və duyğu ilə yüklənməyib" fikrinin xüsusi vurğulandığı yazıda Azərbaycan həqiqətləri bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılıb.




Beynəlxalq media mütəxəssisi münaqişənin sülh yolu ilə həlli məqsədilə yaradılan, Fransa, Rusiya və ABŞ-ın həmsədr olduğu ATƏT-in Minsk qrupunun fəaliyyətinin uzun illərdir heç bir səmərə vermədiyini, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən geri çəkilməsi ilə bağlı qətnamələrinin də bu illər ərzində icra olunmadığını bildirib. Bu səbəbdən də sosial media platformalarının gündəmində olan #KarabakhIsAzerbaijan (Qarabağ Azərbaycanındır!) həştəqinin əslində hamıya məlum olan sadə bir həqiqəti əks etdirdiyi vurğulanıb.

D.Meysonun analitik təhlili sosial mediada böyük maraqla qarşılanıb. Belə ki, Azərbaycandan, həmçinin müxtəlif ölkələrdən olan internet istifadəçiləri yazını bəyənib və paylaşım edib. Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də həmin yazını "Twitter" səhifəsində paylaşıb. Hikmət Hacıyev paylaşımında D.Meysonla şəxsi tanışlığının olmadığını, lakin Azərbaycan xalqının duyğularını ifadə etdiyinə və dəstəyinə görə təşəkkürünü bildirib. Məqalənin tam mətni ilə bu linkdən tanış olmaq mümkündür: https://bit.ly/2HDygRq

Qeyd edək ki, Dan Meyson otuz ildən çox peşəkar jurnalist kimi Böyük Britaniyanın ən qabaqcıl media qurumlarında çalışıb. O, son 10 ildə Azərbaycanla yanaşı, Gürcüstan, Qətər, İsrail, Misir, Çin, Abu Dabi, İordaniya, Kipr və Avropa ölkələrində rəqəmsal media təlimləri keçməkdədir.

## İqor Korotçenko: "Azərbaycan ordusu yaxşı təchiz olunub, o - layiqli rəqib və regionda ən yaxşı ordudur"



Cəbhədə vəziyyət, ən azı indiki vaxtda, Azərbaycanın xeyrinədir. Bu, onu göstərir ki, Bakının orduya, müdafiəyə çəkdiyi xərclər əbəs deyildi. AZƏRTAC xəbər verir ki, bu barədə "Pravda.ru" nəşrinə hərbi ekspert, "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko söhbət açıb.

O, birinci Qarabağ müharibəsindən danışaraq xatırladıb ki, o vaxt Azərbaycanda hakimiyyətə Xalq Cəbhəsi gəlmişdi. Ekspert deyib: "Əlbəttə, sərt mərkəzləşdirilmiş hakimiyyətin yoxluğu şəraitində o dövr üçün səfərbərlik və döyüş əməliyyatlarının düzgün idarə edilməsini həyata keçirmək mümkün olmadı. Ermənistan isə bizdə Müdafiə naziri vəzifəsinə Pavel Qraçov təyin olunduqdan sonra ciddi dəstək qazandı. Qraçov Ermənistana rəğbət bəsləyirdi, qəbul edilən müəyyən qərarlara müvafiq olaraq, Ermənistan öz ərazisində yerləşən hərbi hissələrdəki texnikanın bir hissəsinə sahib oldu, digər hissəni isə anbarları çapıb talayaraq öz əlinə keçirdi".

İ.Korotçenkonun fikrincə, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda vəziyyət düzəldi. Rusiyalı ekspert deyib: "Heydər Əliyev tanınmış sovet dövlət xadimi, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, vaxtilə Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik etmiş, yüksək hazırlıqlı, iradəli, sərt və sözübütöv siyasətçi idi. Prezident Heydər Əliyev Azərbaycan ordusunu bərpa etməyə, faktiki olaraq sıfırdan yaratmağa başladı. Çünki Xalq Cəbhəsi özündən sonra çox acınacaqlı miras qoymuşdu. Artıq İlham Əliyev hakimiyyətə gələndə o, iri infrastruktur neft-qaz layihələrini həyata keçirməyi bacardı, bu layihələr əhəmiyyətli həcmdə valyuta gəlirləri gətirməyə başladı. Bu vəsaitlər hesabına bütün Azərbaycan inkişaf edirdi, lakin böyük təxsisatlar məhz orduya yönəldilirdi. Ona görə də bugünkü Azərbaycan ordusu yaxşı təchiz olunub, o - layiqli rəqib və regionda ən yaxşı ordudur, dünyanın ən yaxşı 50 ordusu sırasındadır".

## Hikmət Hacıyev: "Ermənistanın kasetli bombalardan istifadə etməsi mülki əhali arasında itkinin çox olmasına hesablanıb"



Ermənistan Ordusu humanitar atəşkəsi kobud şəkildə pozaraq Azərbaycan ərazilərini, mülki vətəndaşları atəşə tutulmaqda davam edir. Bu, onu göstərir ki, Ermənistan tərəfinin humanitar atəşkəs barədə dedikləri riyakarlıqdan başqa bir şey deyil.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oktyabrın 27-də keçirilən brifinqdə bildirib.

Prezidentin köməkçisi deyib ki, Ermənistan Silahlı Qüvvələri bu gün Azərbaycanın Bərdə və Tərtər şəhərlərini "Smerç" raketindən atəşə tutub. Onların bu terror aktı nəticəsində biri uşaq olmaqla dörd mülki vətəndaş həlak olub, xeyli sayda insan yaralanıb. Ermənilər beynəlxalq qanunlara zidd olaraq Azərbaycan mülki əhalisinə qarşı kasetli bombalardan istifadə edirlər. Bu da mülki əhali arasında itkinin çox olmasına hesablanıb. Ermənistan Azərbaycanın hərbi qüvvələrinə zərbə endirməkdə acizdir, ona görə də mülki əhalini hədəf seçir.

Hikmət Hacıyev qeyd edib ki, bu gün Ermənistan Azərbaycanın Goranboy, Tərtər, Ağcabədi və Bərdə rayonlarına 50-yə qədər mərmi atıb. Ermənistanın hücumları nəticəsində indiyə qədər 69 mülki şəxs həyatını itirib, 322 mülki şəxs yaralanıb. Prezidentin köməkçisi diqqətə çatdırıb ki, Ermənistanın mülki əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadə etdiyi barədə Azərbaycan tərəfindən beynəlxalq humanitar təşkilatlara da müraciət edilib.

## "Ermənistanın meyitlərin və əsirlərin dəyişdirilməsi barədə Azərbaycanın təklifinə cavab verməməsi öz vətəndaşlarına qeyri-humanist münasibətinin göstəricisidir"



Azərbaycan Respublikası beynəlxalq humanitar hüquq normalarına, həmçinin Cenevrə konvensiyalarının tələblərinə sadiqliyini ifadə edərək, humanitar atəşkəs elan olunması haqqında Moskva razılığından sonra öz insanpərvər mövqeyini bir daha vurğulayıb. Belə ki, Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası oktyabrın 12-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin başçısı ilə keçirilmiş görüşdə birtərəfli qaydada Azərbaycan tərəfinin humanist addım kimi Ermənistanın 30 hərbçisinin meyitinin və eyni zamanda, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərimizdən geri çəkildiyi zaman köməksiz vəziyyətdə qoyub getdiyi erməni millətindən olan iki mülki şəxsin - Hadrut qəsəbə sakinləri 85 yaşlı Babayan Yevgeniya Pavlovnanın və 84 yaşlı Melkumyan Mişa Merlandoviçin qarşı tərəfə verilməsi ilə bağlı birtərəfli qaydada BQXK-ya təklif verib.

AZƏRTAC xəbər verir ki, bunu Dövlət Komissiyasının katibi İsmayıl Axundov oktyabrın 27-də jurnalistlərə müsahibəsində deyib. O, həmçinin bildirib ki, bundan sonra Dövlət Komissiyası tərəfindən BQXK-nın Azərbaycan nümayəndəliyi ilə keçirilmiş görüşlərdə bununla bağlı bir neçə dəfə təklif verilməsinə baxmayaraq, bu humanitar missiyaya Ermənistan tərəfindən heç bir cavab verilməyib. Bu, Ermənistanın beynəlxalq humanitar hüquq normalarına hörmətsizlik əlaməti olmaqla yanaşı, bu ölkənin öz vətəndaşlarına qeyri-humanist mövqe sərgiləməsinin göstəricisidir.

## Anar Eyvazov: Ermənistan silahlı qüvvələrinin bölmələri humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozub



Ötən müddət ərzində humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozan Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini, o cümlədən Zəngilan rayonunun Ağbənd kəndi istiqamətindəki ərazilərimizi müxtəlif silahlardan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 27-də Hərbi İnformasiya Mərkəzində Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, vəziyyəti daha da gərginləşdirmək istəyən düşmən yaylım atəşli reaktiv sistemlərdən və artilleriya qurğularından istifadə etməklə cəbhəboyu bölgəyə yaxın bir sıra yaşayış məntəqələrimizə də atəş zərbələri endirib. Cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində hücum etməyə cəhd edən düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Keçirilən adekvat tədbirlər nəticəsində düşmən diviziyalarından birinin qərargah rəisi daxil olmaqla xeyli sayda canlı qüvvəsi, bir tankı, dörd artilleriya qurğusu, "Osa" tipli zenit raket kompleksi, "Qrad" tipli yaylım atəşli reaktiv sistemi, radiolokasiya stansiyası və altı avtomobil texnikası və diviziyasının əsas komanda məntəqəsi bölmələrimiz tərəfindən məhv edilib. Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Ermənistan ərazisini guya pilotsuz uçuş aparatı və raket-artilleriya sistemlərindən atəşə tutmağımız barədə düşmənin yaydığı məlumat növbəti dezinformasiyadır. Yeni humanitar atəşkəs rejiminə tam riayət edən bölmələrimiz bütün cəbhəboyu düşmənin törətdiyi təxribatlara təmkinlə yanaşaraq yalnız adekvat tədbirlər görür.

"Ermənistan cəbhənin müxtəlif istiqamətləri, xüsusilə də bərpa edilmiş dövlət sərhədləri üzrə vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirməyə hesablanmış təxribatçı hərəkətlərinə son qoymalıdır. Ermənistan rəhbərliyi dərk etməli və hesablaşmalıdır ki, bərpa edilmiş dövlət sərhədləri artıq münaqişə bölgəsi deyil və Azərbaycanın tamhüquqlu suveren ərazilərini müəyyən edən, beynəlxalq birlik tərəfindən tanınan dövlət sərhədidir. Dövlət sərhədinin toxunulmazlığı təmin edilməlidir. Bu istiqamətdə baş verən istənilən təxribat ərazi bütövlüyümüzə təcavüz kimi dəyərləndirilir. Bu baxımdan bir daha bəyan edirik ki, Azərbaycan öz ərazilərinə təhdid edən istənilən legitim hərbi hədəfləri yerləşdiyi ərazidən asılı olmayaraq məhv etmək hüququna malikdir", - deyə Anar Eyvazov vurğulayıb.

## Növbəti erməni vəhşiliyi: Bərdədə həlak olan mülki şəxslərin sayı 4-ə çatıb



Ermənistan silahlı qüvvələrinin saat 16 radələrində Bərdə rayonunun Qarayusifli kəndini müxtəlif istiqamətlərdən ag?ır artilleriya atəşinə tutması nəticəsində həlak olan mülki şəxslərin sayı dördə çatıb. Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a



bildiriblər ki, hadisə nəticəsində xəsarət alan şəxslərdən İsmayılov Ehtiram Xəlil oğlu da həlak olub.

Bununla da həlak olanların sayı dördə çatıb. Baş Prokurorluğun hadisə ilə bağlı ilk açıqlamasında düşmənin ağır artilleriya atəşi nəticəsində üç nəfərin - Cəfərova Ofeliya Məcid qızının, Əhmədova Aybəniz Əşrəf qızının və 2013-cü il təvəllüdlü İsgəndərova Aysu Rövşən qızının həlak olduğu, 7 nəfərin isə xəsarət aldığı bildirilmişdi. Hazırda prokurorluq əməkdas?ları tərəfindən mövcud s?əraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilməklə zərərçəkmiş şəxslərin siyahısının dəqiqləşdirilməsi üzrə işlər aparılır.

## "Paşinyanı artıq heç bir siyasi partiya, siyasi şəxslər dəstəkləmir"

"Əgər bir ölkənin başqa bir ölkənin ərazisində ordusu varsa, bu, işğalçı və terrorçudur". Bu fikirləri SİA-ya açıqlamasında "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.



Siyasi ekspertin sözlərinə görə, bu gün də Ermənistan baş naziri öz vətəndaşlarına çağırış edirsə, eləcə də baş nazirin həyat yoldaşı əyninə forma geyinib "Azərbaycan torpağına gedək" çağırışı edirsə, bu, artıq onun terrorçuluq, işğalçılıq və müharibə istəyinin əyani sübutudur: "Bu, həmçinin beynəlxalq hüququn pozulmasıdır və bunun cavabı olaraq Azərbaycan istənilən vaxtı nəinki Dağlıq Qarabağdan erməni əsgərlərini qovub çıxaracaq, sonradan Ermənistanın özünə də müharibə elan edə bilər və yaxud da adekvat tədbirlər görə bilər.

Digər tərəfdən, Ermənistanın daxilində nizami, peşəkar ordu döyüş meydanında uduzubsa və yaxud da kütləvi şəkildə məhv olubsa, artıq onların sayları bizlərə bəllidir. Biz onların sıradan çıxarılmış hərbi texnikalarını məhv etdiyimiz halda, həmin texnikaların şəxsi heyəti hesablanarkən, eyni zamanda, döyüş meydanında məhv edilmiş 10 mindən artıq hərbçiləri artıq məhv edilmiş sayılır. Hətta onlar öz meyitlərini döyüş meydanında qoyub götürmək istəmirlərsə, bu, ondan xəbər verir ki, artıq iki qat sayda yaralı var. Bu, o deməkdir ki, öz canlı qüvvəsinin təxminən 50 faizdən çoxunu peşəkar hərbçisini itirən Ermənistan indi sözsüz ki, uşaqları, yaşlıları, qadınları orduya cəlb edir. Bütün bunlar işğalçı ölkənin hərbi meydanda uduzduğunun göstəricisidir. Sadəcə olaraq, bu çağırışın özü də beynəlxalq konvensiyaları pozmaqdır və məğlubiyyətini etiraf etməkdir.

Əgər peşəkar hərbçi döyüş meydanında məhv olubsa, 15 yaşında uşağa və yaxud da qadına 1 həftə təlim keçib nizami ordunun qarşısına göndərirsə, bu, artıq ilk başdan onların ölüm hökmünün verilməsi deməkdir. Bu, sona qədər davam edə bilməz. Erməni mətbuatı özü də etiraf edir ki, artıq Paşinyanı heç bir siyasi partiya, erməni cəmiyyətində olan siyasi şəxslər dəstəkləmir".

# Azərbaycan ordusu bir ay ərzində 4 şəhər, 4 qəsəbə, 165 kənd azad edib!

## TAM SİYAHI

***Müzəffər Azərbaycan ordusunun uğurlu əks-hücum əməliyyatına başlamasından bir ay ötür. Bu ay ərzində Azərbaycan Ordusu dünya müharibə tarixində yeni bir səhifə açdı.***

SİA-nın məlumatına görə, düşmənə ciddi zərbələr vuran Azərbaycan Ordusu bir ay ərzində Ermənistana hərbi texnika və canlı qüvvə baxımından ciddi zərbə vurub. Düşmənin dəyəri 2 milyard dollardan çox hərbi texnikası məhv edilib və hərbi qənimət kimi götürülüb. Həmin siyahı aşağıdakı kimidir:



* 252 tank məhv edilib, 53 tank qənimət kimi götürülüb. Toplam 305 tankdan Ermənistan məhrum edilib.

* Piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb - cəmi 79 ədəd.





* Müxtəlif çaplı toplar - 251-i məhv edilib, 24-ü qənimət kimi götürülüb, cəmi 275.

* Minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb, toplam 106

* Tank əleyhinə vasitə - 53-ü məhv edilib

* 82 "Qrad" qurğusu məhv edilib

* 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi, 1 "TOS" məhv edilib

* Zenit-raket kompleksləri - 4 "TOR", 40-a yaxın "OSA", 4 "KUB", 1 "KRUQ", 2 "S-125" qurğusu məhv edilib

* 6 "S-300" atıcı qurğusu məhv edilib

* Əməliyyat taktiki raket kompleksləri - Elbrus, ikisi məhv edilib, "Toçka-U" biri məhv edilib.

* Yük avtomobilləri - 231 yük avtomobili məhv edilib, onlardan 20-si sursatı ilə. 173 yük avtomobili hərbi qənimət kimi götürülüb, toplam 404 yük avtomobili

Azərbaycan Ordusunu bir ay ərzində azad etdiyi əraziləri tarixi ardıcıllıqla sizə təqdim edirik:

### 27 sentyabr

Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri

Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri

Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər

### 3 oktyabr

Tərtər rayonunun Suqovuşan qəsəbəsi və Talış kəndi

Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri

Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

### 4 oktyabr

Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, 0, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

### 5 oktyabr

Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri

### 9 oktyabr

Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi

Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri

Füzuli rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri

Tərtər rayonunun Çaylı kəndi

### 14 oktyabr

Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri

Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

### 15 oktyabr

Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri

Füzuli rayonunun Arış kəndi

Cəbrayıl rayonunun Doşulu kəndi

### 16 oktyabr

Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

### 17 oktyabr

Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

### 18 oktyabr

Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

### 19 oktyabr

Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

### 20 oktyabr

Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri

Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri

Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri

Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

### 21 oktyabr

Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri

Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri

Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

### 22 oktyabr

Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi

Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri

Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

### 23 oktyabr

Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri

Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri

Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri

Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

### 26 oktyabr

Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri

Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri

Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

Ümumilikdə, Cəbrayıl şəhəri və rayonun 64 kəndi, Füzuli şəhəri və rayonun 30 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd qəsəbələri və 38 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 20 kəndi, Tərtər rayonunun 2 kəndi, Qubadlı şəhəri və rayonun 11 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində strateji yüksəkliklər azad olunub.



## Ermənistanın hərbi itkiləri 2,7 milyard dolları keçdi!

2020-ci il sentyabr ayının 27-dən oktyabrın 26-dək olan müddətdə davam edən Vətən müharibəsində Ermənistanın məhv edilən və hərbi qənimət kimi götürülən texnikasının dəyəri 2,7 milyard ABŞ dollarını ötüb. SİA-nın məlumatına görə, bunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı Ermənistanın hərbi texnika və sursat itkilərinə dair Mətbuat Konfransında deyib.

Onun sözlərinə görə, bu müddət ərzində Ermənistan ordusunun 252 tankı məhv edilib, 53 tankı qənimət kimi götürülüb. Ermənistan 79 ədəd piyadaların döyüş maşını, 275 müxtəlif çaplı top, 106 minaatan, 53 tank əleyhinə vasitədən məhrum edilib. 82 “Qrad” qurğusu, 2 “Uraqan” Yaylım Atəşli Raket Sistemi, bir “TOS” sistemi məhv edilib. Eyni zamanda 4 “TOR”, 40-a yaxın “OSA”, 4 “KUB”, bir “KRUQ”, 2 “S-125” zenit-raket kompleksləri və qurğuları zərərsizləşdirilib. Həmçinin, 6 “S-300” atıcı qurğusu, bir aşkaretmə stansiyası, bir lokator, bir “Toçka-U”, 2 Elbrus əməliyyat taktiki raket kompleksləri məhv edilib. Əlavə olaraq, 20-i silah-sursatla dolu olan 231 yük avtomobili məhv edilib, 173 yük avtomobili isə hərbi qənimət kimi götürülüb. Qeyd edək ki, bu tam siyahı deyil, yaxınlarda Ermənistanın hərbi texnika və sursat itkisi barədə əlavə məlumat veriləcəkdir. Məhv edilən hərbi texnikanın içərisində Ermənistanın iqtisadi gücünün əldə etməyə heç bir imkan vermədiyi dəyəri yüz milyonlarla dollarla ölçülən S-300 sistemlərindən, satışı qadağan olunan ballistik “Elbrus” raket sistemlərinə qədər çoxnövlü silah arsenalına rast gəlinməsi Ermənistanın ötən 30 il ərzində qanunsuz silahlandırılmasına da aydınlıq gətirib Cəmi bir ay ərzində Ermənistana vurulan hərbi ziyan bu ölkənin ümumi hərbi xərclərini 4 dəfə üstələyir. Ancaq 716 milyon ABŞ dolları civarında hərbi büdcəsi olan bir ölkənin milyardlarla dollar silah arsenalına sahib olması iqtisadi qanunauyğunluqlarla heç bir halda izah oluna bilməz. Belə ki, cəmi 2,6 milyard ABŞ dolları həcmində rezerv aktivləri olan Ermənistanın iqtisadi gücü bu silahları əldə etmək baxımından xeyli məhduddur. Digər tərəfdən bir aylıq müharibədə itirdiyi hərbi texnikanın miqdarı Ermənistanın silahlanmanın məhdudlaşdırılmasını nəzərdə tutan “Avropada Adi Silahlı Qüvvələr üzrə Saziş”in şərtlərini də pozduğunu və bu müqavilənin şərtlərinə uyğun olmayan həddə silah və hərbi texnika saxladığını ortaya çıxarıb.

Fundamental iqtisadi qanunlar və hərbi xərcləmələr üzrə hesablamalar Ermənistanın hazırkı hərbi büdcəsinin xərc istiqamətləri vasitəsi ilə itirdiyi hərbi texnika və sursatı bərpa etməyə təxminən 25 il vaxt lazım olduğunu göstərir. Məhz buna görədir ki, artıq Ermənistan bu imkanlarının tükəndiyini görür və üçüncü ölkələrdən Ermənistana “humanitar yardım” adı altında silahların, maliyyə, ərzaq yardımlarının qanunsuz daşınması həyata keçirilir. Lakin Ermənistanın qanunsuz silahlandırılmasına şərait yaradan və ya birbaşa dəstək verən ölkələr bu silahların erməni terrorçuları tərəfindən istifadəsini də nəzərə almalıdırlar. Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin xüsusi paraqrafla qeyd etdiyi “erməni terrorizmi” anlayışının mahiyyəti bu ölkələr tərəfindən dərindən dərk olunmalıdır.

Məhz buna görə də, Ermənistana yatırılan hər hansı sərmayə, verilən borc və pul köçürmələrinin birbaşa terrorizmin və işğalın maliyyələşdirilməsinə sərf olunması amili beynəlxalq ictimaiyyət tərəfindən diqqətdə saxlanılmalıdır. Ermənistanı maliyyələşdirən beynəlxalq təşkilatların infrastruktur investisiyaları əslində Ermənistan tərəfindən dolayısı ilə terrorizmin və işğalın maliyyələşdirilməsinə sərf olunur və bu təşkilatların mandatına heç bir halda uyğun gəlmir. Digər tərəfdən, Ermənistanın maliyyələşdirilməsi birbaşa militarist iqtisadiyyata yatırılan sərmayədir. Belə ki, hərbi xərclərinin Ümumi Daxili Məhsulda xüsusi çəkisi 10 faiz ətrafında olan Ermənistan dünyada ən çox hərbiləşmiş azsaylı ölkələrdən hesab olunur. Buna müvafiq olaraq, beynəlxalq təşkilatlar və üçüncü ölkələr Ermənistanın maliyyələşdirilməsi, bu ölkəyə hər hansı vəsaitin verilməsinin işğalın və terrorizmin maliyyələşdirilməsinə sərf olunduğunu nəzərə almalıdırlar.

## Pakistan səfiri: Azərbaycanı, onun hüquqi haqqını dəstəkləyirik



Azərbaycan başqasının torpağında yox, öz torpağında döyüşür və uzun müddətdir işğal altında olan torpaqlarını azad etməyə çalışır. SİA-nın məlumatına görə, bunu Pakistanın Azərbaycandakı səfiri Bilal Hayee jurnalistlərə açıqlamasında deyib. Səfir qeyd edib ki, Azərbaycanın cəsur Ordusunun öz torpaqlarını işğaldan necə azad etdiyini yaxından izləyirlər: “Biz bunu hüquqi, legitim mübarizə hesab edirik. Bu, beynəlxalq hüquqda da öz əksini tapıb. Öz ərazinizi, Vətəninizi müdafiə etmək sizin haqqınızdır. Buna görə də biz bu məsələdə Azərbaycanı, onun hüquqi haqqını dəstəkləyirik”.

## Bərdədə həlak olan 8 yaşlı Aysunun azyaşlı bacısı da yaralanıb



Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə rayonu ərazisinə raket atılması nəticəsində həlak olan Aysu İsgəndərovanın 3 yaşlı bacısı Tahirə İsgəndərova da yaralanıb. Bu barədə “Report”un cəbhə bölgəsinə ezam olunmuş əməkdaşı xəbər verir. T.İsgəndərovanın sağ baldırında qəlpə yarası var. Hazırda qəlpə çıxarılıb, o, əməliyyat olunub. T.İsgəndərovanın anası Mətanət İsgəndərova “Report”un əməkdaşına bildirib ki, hadisə zamanı uşaqlar həyətdə oynayırmış: “Birdən səs gəldi, qonşumuz Ehtiramın evinə qəlpələr yağdı. Həmin vaxt da uşaqlar qan içində idi. Böyük qızım Aysu öldü, balaca qızım Tahirə isə yaralandı. Onu tez xəstəxanaya çatdırdıq”.

Həkim “Report”a bildirib ki, bu gün axşam saatlarında xəstəxanaya 12 mülki şəxs qəlpə yarası ilə daxil olub: “Dörd nəfər hadisə yerində ölmüşdü. Yaralılardan biri açıq kəllə-beyin travması, kəllə sümüklərinin sınığı, komatos vəziyyətdə neyrocərrahiyə şöbəsinə göndərdik. Digər xəstələr də müalicə olunur”.

Qeyd edək ki, dünən saat 16:40 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə rayonu “Smerç” raketlərindən istifadə olunaraq atəşə tutulub. Nəticədə rayonun Qarayusifli kəndində 4 mülki şəxs həyatını itirib, 14 nəfər ağır şəkildə yaralanıb.

## Los-Ancelesdə erməni lobbisinin İsraili nasist Almaniyası ilə eyniləşdirməsi ABŞ-ın yəhudi icmasında ciddi narazılıqla qarşılanıb


JEWISH JOURNAL



Armenian protestor holds a sign at a demonstration outside the Israeli Consulate General in Los Angeles, Oct. 19, 2020. Photo: Armenian Youth Federation

COMMENTARY BLOGS

Armenian protest in Los Angeles equates Israel to Nazi Germany

By Milikh Yevdayev October 22, 2020

Bakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih Yevdayevin Los-Ancelesdə erməni lobbisinin İsraili nasist Almaniyası ilə eyniləşdirməsinə dair məqaləsi ABŞ-ın ən böyük yəhudi qəzetlərindən olan “Jewish Journal” qəzetində dərc edilib.

Azərbaycan Respublikasının Los-Ancelesdəki baş konsulluğundan bildiriblər ki, məqalədə İsrailin Azərbaycana dəstəyinə etiraz olaraq Los-Ancelesdəki erməni lobbisi ötən həftə İsrailin baş konsulluğu qarşısında mitinq keçirdiyi qeyd edilib. Həmin mitinqdə İsrailə “Sizin nasist Almaniyasından heç bir fərqiniz yoxdur” şüarı ünvanlanıb.

M.Yevdayev Ermənistanda antisemitizmin baş alıb getdiyini, nüfuzlu “Anti-Defamation League” yəhudi təşkilatının araşdırmasına əsasən, onun Avropada ikinci, dünyada isə Yaxın Şərq və Şimali Afrikadan sonra üçüncü ən antisemit ölkə olduğunu qeyd edib.

Müəllif, həmçinin Ermənistanın İkinci Dünya müharibəsi illərində nasist Almaniyası ilə əməkdaşlıq etmiş erməni general Qaregin Njdeni milli qəhrəman səviyyəsinə qaldırdığını, ona Yerevanda heykəl ucaltdığını və nasistlərə xidmət etmiş digər erməni general Drastamat Kanayanın adının da dövlət səviyyəsində əbədiləşdirildiyini bildirir. Los-Ancelesdəki aksiyanı keçirən Erməni Gənclər Federasiyası (Armenian Youth Federation) təşkilatının da vaxtilə məhz Q.Njde tərəfindən yaradıldığını diqqətə çatdırır. M.Yevdayev, eyni zamanda, bir neçə gün əvvəl Ermənistanın Almaniyanın “Almaniya üçün Alternativ” Partiyasının neonasist üzvlərini Azərbaycanın işğal olunmuş ərazilərinə dəvət etdiyini vurğulayır.

## Fransa kimi söz azadlığından danışan bir ölkədə erməni lobbisinin söz azadlığını boğması qəbuledilməzdir

Son günlər Fransada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri yazan jurnalistlər, siyasətçilər, eləcə də ictimai şəxslər erməni təşkilatlarının hədə-qorxusu ilə üzləşirlər. Hər hansı bir televiziya kanalını boykot etməyə çağırış və ya jurnalistin birbaşa ölümlə təhdid edilməsinin bu gün asanlıqla baş verməsi təəccüb və hiddət doğurur. Fransa kimi söz azadlığından danışan bir ölkədə erməni lobbisinin söz azadlığını boğması qəbuledilməzdir. Jurnalistikanın fundamental prinsiplərinə sadiqlik nümayiş etdirərək baş verənlər barədə qərəzsiz məlumat təqdim edən həm “TF1” kanalının rəhbərliyi, həm də Xanım Budul yayımlanan reportajdan sonra erməni lobbisinin təhdidlərinə məruz qalıb.

Yalanlarının ifşa olunduğunu görən erməni lobbisi öz məqsədlərinə nail ola bilmədikləri üçün hədə-qorxu və təhdidlərdən istifadə edirlər. Bu, bir daha erməni diasporunun iç üzünü, mətbuat azadlığına qarşı olan qərəzli münasibətini nümayiş etdirir. Xatırladaq ki, Dağlıq Qarabağda müharibə başlayanda “Liberation” qəzetinin jurnalistləri də erməni lobbisi tərəfindən ölüm hədələri almışdı.

Fransada satirik “Charlie Hebdo” jurnalı üz qabığında Məhəmməd Peyğəmbərin karikaturalarına görə hücuma məruz qaldığı zaman Fransa başda olmaqla bütün Avropa ölkələri ayağa qalxdı, həmrəylik göstərdi. Fransa mətbuatı isə yaşanmış olayı təkcə “Charlie Hebdo”ya qarşı işlənmiş bir cinayət kimi yox, Fransa xalqının mənəviyyatına və demokratik dəyərlərinə qarşı işlənmiş bir cinayət kimi dəyərləndirdi.

Təəssüf ki, bütün dünya liderləri “Charlie Hebdo”ya qarşı hadisəni söz azadlığına qəsd kimi qiymətləndirdiyi halda ASALA-nın, eləcə də erməni terror təşkilatlarının jurnalistlərə və beynəlxalq hüququ dəstəkləyən deputatlara qarşı ölüm hədələrinə susqunluq və biganəlik nümayiş etdirir.

Məsələ burasındadır ki, bu gün azadlıq ideyasından böyük dövlətlər digər dövlətlərə təsir etmək üçün alət kimi istifadə edirlər. Onu da qeyd edək ki, “TF1” kanalı və digər mətbu orqanların təhdidə məruz qalan əməkdaşları hazırladıqları reportajlarda heç də Azərbaycan mövqeyindən çıxış etmirlər. Lakin biz xarici media nümayəndələrinin neytral hazırladıqları məlumatlara anlayışla yanaşır və onların əməyinə hörmətlə yanaşırıq.

Bundan başqa, ermənilər artıq aşkar şəkildə onlara dəstək olmayan müttəfiqlərini, bir sıra böyük dövlətləri terrorla hədələyir. Fransa Milli Assambleyasının (Parlament) Xarici İşlər üzrə Komissiyasının və Fransa-Azərbaycan Dostluq Qrupunun üzvü, deputat Jerom Lambenin erməni lobbisinin üzvləri tərəfindən ona göndərilən təhdid dolu yazını “Twitter” hesabında paylaşıb. Dostluq qrupunun vitse-prezidenti Fransadakı erməni lobbisinin onların mövqeyini dəstəkləməyən avropalı siyasətçiləri belə təhdid etdiyini də bildirib.

Bu gün biz erməni lobbisi həqiqəti deyən jurnalistləri və siyasətçiləri dəfələrlə susdurmaq üçün səfərbər olduğunun və fikir azadlıqlarına necə manipulyasiya edərək beynəlxalq hüquqa qarşı çıxdığının şahidi oluruq. Bütün bunlar ermənilərin çıxış yolu kimi terroru seçdiklərini təsdiqləyir. Bir daha təsdiq olundu ki, ermənilərin əsas metodlarından olan terrorçuluq Ermənistanda dövlət siyasətinin tərkib hissəsidir. “Demokratiyanın beşiyi” adlandırılan Fransa kimi bəşəri ənənələrə malik ölkədə demokratizmin mühüm göstəricisi sayılan söz azadlığına qarşı ağlagəlməz basqı təəccüb doğurur. Necə olur ki, F1 kanalını, beynəlxalq hüququ dəstəkləyən deputatları terrorizmlə və ASALA ilə hədələyirlər, Fransada söz azadlığına və demokratik prinsiplərə qarşı gedə bilirlər. Biz Avropa cəmiyyətində söz və ifadə azadlığı üçün qorxunc mənzərə görürük. Başqa ölkələrdə insan hüquqları axtarışında olan Fransanın öz daxilində ASALA-nın, eləcə də daim himayə elədiyi erməni lobbisinin jurnalistlərə qarşı ölüm hədələrinə cavabı bu ölkə rəsmilərinin insan hüquqlarının müdafiəsinə, söz azadlığına verdiyi önəmi əks etdirəcəyinə ümid edirik. Fransada fəaliyyət göstərən müstəqil kütləvi informasiya vasitəsinə və siyasətçilərə qarşı erməni lobbisinin göstərdiyi təzyiqlərə söz azadlığının müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatlar, eləcə də insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən təşkilatlar öz münasibətini bildirməlidir. Təəssüf ki, beynəlxalq ictimaiyyətin təzyiqini və təpkisini görməyən erməni terrorizmi bu hadisələrə lazımi qiymət verilməməsi ucbatından getdikcə daha geniş miqyas alır.

# Milli Məclisin iclasında Xocavənd rayonunun Vəng kəndinin Çinarlı adlandırılması təsdiqlənib

***İclası Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli aparıb. Birinci vitse-spiker bildirib ki, oktyabrın 26-da Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqına növbəti müraciət edib. Bu müraciət xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb. Müraciətdə dövlətimizin başçısı, eyni zamanda, Dağlıq Qarabağın böyük yaşayış massivlərindən biri olan Qubadlı şəhərinin işğaldan azad edildiyini bəyan edib. Əli Hüseynli bu münasibətlə Milli Məclisin adından xalqımızı təbrik edib.***

Parlamentin Sədrinin birinci müavini bildirib ki, bu dövr ərzində deputatlar baş verən hadisələrlə bağlı həqiqətləri və dövlətimizin mövqeyini həm mediada, həm də təmsil olunduğumuz beynəlxalq təşkilatlarda aydın şəkildə geniş ictimaiyyətə çatdırıblar. Qeyd edilib ki, komitə sədrlərinin iclaslarında Milli Məclisin Sədri Sahibə Qafarova deputatların bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirib, təşəkkürünü ifadə edib.

Sonra Əli Hüseynli gündəliyə 8 məsələnin daxil edildiyini diqqətə çatdırıb. Gündəliyə münasibət bildirildikdən sonra deputatlar cari məsələlər barədə fikirlərini bölüşüblər.

Komitə sədrləri Zahid Oruc, Hicran Hüseynova, deputatlar Fazil Mustafa, Soltan Məmmədov, Aqiyə Naxçıvanlı, Müşfiq Cəfərov, Kamilə Əliyeva, Fəzail Ağamalı, Kamal Cəfərov, Anar İsgəndərov, Azay Quliyev çıxışlarında bildiriblər ki, bu gün Azərbaycan cəmiyyətində əsas məsələ birlik modelinin inkişaf etdirilməsidir. Bunun əsas memarı isə Prezident İlham Əliyevdir. Onun hər bir çıxışı Azərbaycan cəmiyyətinin daha mobil şəkildə müharibəyə səfərbər olmasına, torpaqların işğaldan azad edilməsinə yönəlib. Qeyd edilib ki, bu hərəkatda parlament də öz üzərinə düşən vəzifələri uğurla yerinə yetirir.

Diqqətə çatdırılıb ki, bu gün xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz ərazi bütövlüyü, suverenliyi, haqq-ədalət uğrunda təkbaşına mübarizə aparır. İşğalçı Ermənistan isə beynəlxalq qurumlar və müxtəlif maraqlı dairələr tərəfindən istər maddi, istərsə də silah-sursatla cəhətdən dəstəklənir.

"Azərbaycan Respublikasının Xocavənd rayonunun Vəng kəndinin Çinarlı kəndi adlandırılması haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi barədə əvvəlcə Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov məlumat verib. Qeyd edilib ki, Ermənistan torpaqlarımızı işğal etməklə, xalqımıza qarşı soyqırımı törətməklə yanaşı, yerli toponimləri də dəyişdirməklə çoxsaylı cinayətlər törədib. Ermənistan tərəfindən Qərbi Azərbaycan və Dağlıq Qarabağ ərazisində 700-dən çox rayon, şəhər, qəsəbə və kəndin, həmçinin bir çox tarixi və mədəni abidələrin adları dəyişdirilib. Hazırda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün bərpası istiqamətində əməliyyatlar davam edir. Bu əməliyyatlar nəticəsində azad edilmiş torpaqlarda yaşayış məntəqələrinin tarixi adlarının qaytarılması sahəsində zəruri işlər həyata keçirilir. Yer adlarımızla bağlı erməni saxtakarlığı aradan qaldırılır. Bu məsələ böyük siyasi, hüquqi və mənəvi əhəmiyyət daşıyır.

Komitə sədri diqqətə çatdırıb ki, coğrafi şəraitinə görə Qarabağın, o cümlədən Xocavənd rayonunun ərazisində Çinar ağacları geniş yayılıb. Bu baxımdan Xocavənd rayonunun Vəng kəndinin adının dəyişdirilərək Çinarlı qoyulması məntiqlidir. Buna uyğun olaraq, Prezident İlham Əliyev tərəfindən təqdim edilən layihədə Azərbaycan Respublikasının Xocavənd rayonunun Hadrut qəsəbəsi inzibati ərazi dairəsi tərkibindəki Vəng kəndinin Çinarlı adlandırılması təklif olunur. Bildirilib ki, məsələyə Toponimiya komissiyasında da baxılıb və müsbət dəyərləndirilib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda Müdafiə, təhlükəsizlik və



korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov təqdim edib.

Bildirilib ki, müvafiq icra hakimiyyəti orqanında birbaşa kadr zabit heyətinə könüllü daxil olan vətəndaşlar bir qayda olaraq dövlət sirrinin daşıyıcıları olurlar. Qanuna ediləcək dəyişikliyə əvvəl vətəndaş könüllü olaraq zabit kimi xidmətə qəbul edildikdə 1 il 6 ay xidmətdən sonra həmin xidmətdən tərxis ola bilirdi. Təklif olunan dəyişikliyə əsasən, həmin şəxslər qiymətləndirmə yolu ilə birbaşa kadr zabit heyəti vəzifələrində təqvim hesabı ilə azı 10 il xidmət etdikdən sonra ehtiyata buraxıla bilərlər. Qeyd edilib ki, layihəyə birinci və ikinci oxunuşlarda heç bir əlavə və təklif olmayıb. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi barədə ikinci oxunuşda Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev danışıb. Diqqətə çatdırılıb ki, qanunun müvafiq maddələrinə "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyası" anlayışının daxil edilməsi, eyni zamanda, "xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası)" ifadəsinin "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması" ifadəsi ilə əvəz edilməsi təklif olunur. Bu dəyişiklik nəticəsində ali təhsil diplomlarının tanınması proseduru təkmilləşdiriləcək, tanınan sənədlərin əhatə dairəsi genişləndiriləcək ali təhsilə aid olan və ya ali təhsilə qəbul olunmaq imkanı verən subbakalavr diplomlarının da tanınma imkanı və proseduru yaradılacaq.

Qeyd edilib ki, xarici ölkələrin səlahiyyətli orqanları tərəfindən verilmiş subbakalavr diplomlarının tanınması ilə xaricdə bu təhsili almış vətəndaşlarımızın, həmçinin əcnəbi və vətəndaşlığı olmayan şəxslərin təhsillərini ölkəmizdə növbəti pillələrdə davam etdirmək imkanları yaranacaq.

Deputatlar Rauf Əliyev, İltizam Yusifov, Etibar Əliyev, Sabir Rüstəmxanlı, Aqiyə Naxçıvanlı dəyişikliklərin əhəmiyyəti barədə fikirlərini söyləyiblər. Müzakirələrdən sonra qanun layihəsi ikinci oxunuşda təsdiq edilib.

Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Torpaq Məcəlləsində, Mülki Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Dövlət rüsumu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev tərəfindən təqdim edilib.

Bildirilib ki, layihə "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli Qanununun icrası məqsədilə hazırlanıb. Belə ki, Mülki Məcəlləyə əsasən, girov və ipoteka eyni hüquqi yükə malik olmaqla, hər ikisi əşya hüquqlarının məhdudlaşdırılmasının formalarıdır. Lakin daşınar əşyalara münasibətdə girov, daşınmaz əşyalara, habelə rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyalara münasibətdə isə ipoteka terminindən istifadə edilir. Bu məqsədlə Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Torpaq Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında" və "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlarda "girov" sözünün "ipoteka" sözü ilə əvəz edilməsi təklif olunur.

Qeyd edilib ki, Mülki Məcəllənin 135.4-cü maddəsinə uyğun olaraq Torpaq Məcəlləsinin 4-cü maddəsinin 4-cü hissəsi yeni redaksiyada verilir. Təklifə əsasən, torpaq sahəsi və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) əşya vahid daşınmaz əşyadır və vahid mülkiyyət obyektidir. Torpaq sahələri, binalar və qurğular, yaşayış və qeyri-yaşayış sahələri, fərdi yaşayış və bağ evləri, yer təki sahələri, sututarlar, meşələr və çoxillik əkmələr, əmlak kompleksi kimi müəssisələr hər biri daşınmaz əmlak olduğundan Mülki Məcəllənin 139-1.1.5-ci maddəsində müvafiq dəyişiklik edilib.

"Torpaq bazarı haqqında" Qanuna təklif olunan dəyişikliyə əsasən, ipoteka qoyulmuş torpaqların bazara çıxarılmasının xüsusiyyətləri "İpoteka haqqında" Qanuna uyğun olaraq tənzimlənəcək. "İpoteka haqqında" Qanunda ipotekaya qoyulmuş daşınmaz əmlakın satışının qaydaları daha əhatəli tənzimləndiyinə görə hər iki qanun arasında uzlaşdırma aparılıb.

Mülki Məcəllənin 135.4-cü maddəsinə uyğun olaraq "Dövlət rüsumu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunlarda da terminologiyanın eyniləşdirilməsi ilə bağlı müvafiq dəyişikliklər təklif olunur. Deputat Sabir Rüstəmxanlı sənədə münasibət bildirib. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Sonra Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib. Bildirilib ki, birinci oxunuşda təqdim olunan layihə "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli Qanununun icrası ilə əlaqədar hazırlanıb. Sənədə əsasən, Əmək Məcəlləsinə işçinin hüquqları və işəgötürənin vəzifələri sırasına işçilərin icbari tibbi sığortası ilə bağlı məsələlərin daxil edilməsi nəzərdə tutulub. Dəyişikliyə görə, əmək müqaviləsində, həmçinin işçinin icbari tibbi sığortalanması barədə müvafiq məlumatlar əks olunmalıdır.

Ailə Məcəlləsinə təklif edilən dəyişiklikdə nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin maliyyələşdirilməsi "Tibbi sığorta haqqında" Qanunun tələblərinə uyğunlaşdırılır. Qanun layihəsi birinci oxunuşda təsdiq olunub.

İclasda "Hərbi qulluqçuların statusu haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Avtomobil yolları haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Dövlət qulluğu haqqında", "Psixiatriya yardımı haqqında", "Onkoloji yardım haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov çıxış edib.

Diqqətə çatdırılıb bu qanun layihəsi də "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2019-cu il 3 dekabr tarixli Qanunun icrası ilə əlaqədar hazırlanıb.

Bildirilib ki, tibbi sığortaya keçidlə əlaqədar icbari tibbi sığorta olunanlara tibbi yardım xidmətlər zərfində nəzərdə tutulduğu hallarda icbari tibbi sığorta haqları hesabına, digər hallarda isə dövlət büdcəsi hesabına göstəriləcək. Hazırda vətəndaş üçün pulsuz tibbi yardım kimi görünsə də, həmin yardımın dəyəri tibb müəssisəsinə dövlət büdcəsi hesabına ödənilir. Tibbi sığortanın tətbiqi isə tibb müəssisələrinin və tibbi yardımın maliyyələşdirilməsinin qaydasını da dəyişmiş olur.

"Əhalinin sağlamlığının qorunması haqqında" Qanuna edilən dəyişikliyə əsasən, dövlət tibb müəssisələrində tibbi xidmətin maliyyə mənbələri, eləcə də ayrı-ayrı əhali qruplarının dövlət tibb müəssisələrində tibbi yardım almasının maliyyə əsasları "Tibbi sığorta haqqında" Qanuna uyğun olaraq dəqiqləşdirilir.

Nəzərə çatdırılıb ki, özəl tibb müəssisələrinin tibbi sığorta sisteminə qoşulmasından asılı olmayaraq, vətəndaşlara təcili tibbi yardımın göstərilməsi üçün bu xidmətlərin haqqı müəyyən olunmuş tariflərlə icbari tibbi sığorta vəsaitləri hesabına onlara ödəniləcək. Bu da əhaliyə təcili tibbi yardımın istənilən tibb müəssisəsində göstərilməsi imkanını artıracaq. Sənəddə adları çəkilən digər qanunlarda uyğunlaşdırma, terminologiyanın dəqiqləşdirilməsi məqsədilə dəyişikliklər təklif olunur. Qanun layihəsi birinci oxunuşda qəbul edilib. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi (birinci oxunuş) barədə Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verib.

Diqqətə çatdırılıb ki, "Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Prezidentinin Sərəncamı ilə maliyyə xidmətləri bazarında, o cümlədən sığorta bazarında tənzimləmə və nəzarət səlahiyyətləri Azərbaycan Respublikasının Mərkəzi Bankına verilib. Buna uyğun olaraq, "Tibbi sığorta haqqında" qanunun 7.2-ci maddəsinə müvafiq dəyişiklik edilib. Dəyişikliyə əsasən, sığortaolunanların könüllü tibbi sığorta ilə bağlı mənafeyini Azərbaycan Respublikasının Mərkəzi Bankı, sığortaçılar, həmkarlar ittifaqı təşkilatları və digər ictimai birliklər müdafiə edir. Qanuna təklif olunan digər dəyişiklik bəzi maddələrdə "səhiyyə xidməti" sözlərinin "tibbi-sanitariya yardımı" ifadəsi ilə əvəz edilməsi ilə əlaqədar. Dəyişiklik "Əhalinin sağlamlığının qorunması haqqında" Qanuna uyğun olaraq edilib. Qanun layihəsi birinci oxunuşda təsdiqlənib. Bununla da Milli Məclisin iclası başa çatıb.

# Vətəndaşlar Prezidentə yazırlar: Cəbhədə şanlı Ordumuzun şücaəti, siyasi arenada Sizin qətiyyətiniz, iradəniz hər birimizi qürurlandırır

***Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə vətəndaşlarımızdan, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyə və digər ölkələrin vətəndaşlarından məktublar ünvanlanmaqda davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.***




Türkiyənin Sakarya vilayətindən Sarıgül Səvzəliyeva yazır: "Çox dəyərli Prezident, hörmətli cənab Ali Baş Komandan, mən əslən türkəm, həyat yoldaşım isə Azərbaycandandır. Tarixi çox sevirəm, tarix müəllimiyəm. Universitetdə tarix dərsləri keçərkən Qarabağda yaşanan qətliamları, Xocalı qırğınını göz yaşları ilə oxuyardım. Bu gün isə rəhbərliyinizlə qəhrəman Azərbaycan Ordusunun tarixə yazdıqlarını sevinc göz yaşları ilə izləyirəm. Azərbaycan tarixində dönüş yaradacaq fəaliyyətinizi yeni nəsillərə ləyaqətlə öyrədəcəyimdən zərrə qədər şübhəniz olmasın. Qarabağın düşmənlərdən təmizlənməsi uğrundakı mübarizənizi cani-könüldən dəstəkləyirik. Çox sevdiyimiz Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə Respublikasının hər bir sakini kimi lazım olduqda can Azərbaycan üçün canımızı fəda etməyə hazır olduğumuzu bildirmək istəyirəm. Sevgili atanız ulu öndər Heydər Əliyevin dediyi kimi, biz bir millət, iki dövlətik. Allahın köməyi ilə zəfər Azərbaycan Ordusunundur. Rəbbim Sizi və qəhrəman əsgərlərimizi qorusun!".

Mersin vilayətindən Atila Mehmet: "Çox hörmətli Prezident, Allahdan Sizə və xalqınıza daimi lütf və mətanət arzulayır, şəhidlərinizə isə rəhmət diləyirəm. Taleyinizdə nə varsa onu paylaşmaq, qarşılaşdıqlarınız önündə sizlərlə çiyin-çiyinə durmaq istəyirəm. Allah Sizi, bizi və bütün İslam dünyasını qorusun, yar və yardımçınız olsun. Bizlərlə xain davranan, oyun oynamağa cəhd edən düşmənlərimiz isə gücün nə olduğunu gördülər. Uca Rəbbimdən tezliklə işğal altında olan torpaqlarınızı azad etmək üçün xalqınıza kömək olmasını arzulayıram. Bir türk olaraq bu mübarizənizdə daim Sizin yanınızda olmaq, "bir millət, iki dövlət" ideyasına xidmət etmək istəyirəm. Qəlbimlə, ruhumla və dualarımla Sizin yanınızdayam. Sizin yolunuzda, haqqın, ədalətin bərpası yolunda qardaşlarımla bir sırada olmaq, Allah qismət edərsə, şəhidlik zirvəsinə ucalmaq mənim üçün şərəfdir. Artıq analarımızın, atalarımızın göz yaşı axıtmasını, övladlarımızın valideynlərindən məhrum olmasını istəmirik. Allaha əmanət olun!".

Bakı şəhər sakini Qələmirzə Masiyev: "Çox hörmətli möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, müstəqil Azərbaycanın vətəndaşı olaraq daim Sizin "Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü ordusu var" şüarınıza inandıq. Yalnız bir çox halda səbirsizlik edirdik. Ancaq "nəyi nə vaxt və necə etməyi də" Sizdən yaxşı bilənin olmamasına inanırdıq. Nə yaxşı ki, müstəqil Azərbaycanın qurucularından olan bizim nəsil də sayənizdə bu xoşbəxt günləri gördü. Biz dövlətimizlə, liderimizlə, əvəzolunmaz və möhtəşəm tarix yazan sərkərdəmizlə fəxr edirik. Ərazi bütövlüyümüzün, milli kimliyimizin, şərəfimiz və ləyaqətimizin bərpasını təşkil və təmin edən bir lider əbədi olaraq xalqımızın rəhbəri, lideri kimi tarixə düşdü. Tam əminəm ki "İlhamla irəli"nin ən məsul və yaradıcı dövrü indi başlayır. Sizi və xalqımızı bu nailiyyətlər münasibətilə təbrik edirəm. Cəbhə bölgəsinə könüllü olaraq yollanan oğlum daxil olmaqla Allah bütün əsgər və zabitlərimizi qorusun, bizə zəfərlər nəsib etsin! Qələbə bizimlədir, Qarabağ Azərbaycandır!".

İsmayıllı sakini Rövşən Rüstəmov: "Möhtərəm Prezidentimiz, Sizin rəhbərliyinizlə 30 illik torpaq həsrətinə son qoyulduğuna, şanlı Ordumuzun hər gün qazandığı qələbələrə görə Sizə təşəkkür və minnətdarlığımı bildirirəm. Cənab Prezident, mən belə düşünürəm ki, Siz Azərbaycan Respublikasının Milli Qəhrəmanısınız. Sizinlə bütün Azərbaycan xalqı fəxr edir, hər gün cəbhədə işğaldan azad olunmuş rayon və kəndlərimizdə Azərbaycan bayrağı dalğalandırılır. Əminəm ki, tezliklə bütün torpaqlarımız düşmən tapdağından azad olunacaq, Azərbaycan bayrağı hər bir şəhər və rayonda dalğalandırılacaqdır. Allah Sizi qorusun, kölgənizi Azərbaycan xalqının başı üzərindən əskik etməsin!".

Mingəçevir şəhər sakini Rövşən Zamanov: "Hörmətli Ali Baş Komandan, bütün Azərbaycan xalqı Sizinlədir. Mən bir kəlbəcərli kimi, Sizinlə fəxr edirəm. Fəxr edirəm ki, Sizin kimi Ali Baş Komandanımız var. Allah müzəffər Ordumuzu qorusun! Siz adınızı Azərbaycan tarixinə qızıl hərflərlə yazdıran bir sərkərdəsiniz. Bütün Azərbaycan xalqı Sizinlədir. İşğal olunmuş torpaqlarımızın, o cümlədən Kəlbəcərin bir hissəsinin işğaldan azad olunması xəbərlərini Sizin dilinizdən eşitdikdə, sevincimizin həddi-hüdudu olmadı. Cənab Prezident, Siz, eyni zamanda, bütün türk dünyasının qəhrəmanısınız! Kəlbəcərdə Sizi qarşılamaq, qonaq etmək ümidi ilə yaşayıram".

Gəncə şəhər sakini Xalidə Əsgərova: "Müzəffər Ali Baş Komandan, mən bir şəhid anası kimi Sizin Azərbaycan torpaqlarının, xüsusilə də Füzulinin və Lələtəpə yüksəkliyinin erməni daşnaklarından geri almağınız münasibətilə Sizə təşəkkürümü bildirirəm. Yeganə oğlum, kapitan Zaur İsmayılov 2004-cü ildən Horadiz qəsəbəsindəki hərbi hissədə xidmət edirdi. Gecə-gündüz dincəlmədən əsgərləri ilə birlikdə Lələtəpə yüksəkliyinin geri alınmasına hazırlaşırdı və hər zaman Sizin əmrinizi gözləyirdi. Oğlum Lələtəpə yüksəkliyi uğrunda gedən döyüşlərdə yaralanan əsgərləri səngərdən çıxarıb geri qayıdanda ürəyindən vurulmuşdu. Mən öz oğlumla fəxr edirəm. Vətən sağ olsun! Bir ana kimi həm sevinirəm, həm də kədərlənirəm. Sevinirəm ona görə ki, Qarabağdakı torpaqlarımız geri alınır. Kədərlənirəm ona görə ki, bu günü görmədi, amma əminəm ki, oğlum Zaurun ruhu şaddır. Arzum budur ki, gün o gün olsun ki, bütün torpaqlarımız geri alınsın. Tezliklə, qələbə bizim olsun. Uca Tanrı Sizi qorusun, Azərbaycan xalqına çox görməsin!".

Şəkidən Besik Kuribabaşvili yazır: "Müzəffər Ali Baş Komandan, mən 1983-cü ildə Qax rayonunun Meşəbaş kəndində anadan olmuşam. Hərbi xidmətimi 2002-ci ildə Füzuli rayonunun Alxanlı kəndində yerləşən hərbi hissədə tank əleyhinə raket qurğusunun baş atıcısı və manqa komandirinin müavini vəzifəsində yerinə yetirmişəm. Sizin məlum Fərmanınızı böyük sevinc və fəxr hissi ilə qarşıladıq. Vətənimizin işğal altında olan torpaqlarının azad olunması vaxtı, nəhayət gəlib çatdı. Çoxdan gözlədiyimiz an, səbirsizliklə arzuladığımız zəfər yürüşü üçün bizlərə imkan yaratdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Cənab Prezident, Vətənimin bu ağır, lakin şərəfli zamanında, ürəklərin cəbhə üçün, torpaq üçün döyündüyü bir vaxtda, hamının bir nəfər kimi "Qarabağ" deyərək mübarizəyə qalxdığı anda mən də bir Azərbaycan vətəndaşı və azsaylı xalqın nümayəndəsi kimi, Vətən qarşısında müqəddəs borcumu yerinə yetirmək istərdim. Cənab Ali Baş Komandan, doğma torpaqlarımızı düşməndən azad etmək üçün, canımdan və son damla qanımdan keçməklə şəhid olmağa hazıram. Şəhidlik zirvəsinə ucalmaq ömürboyu arzusunda olduğum xoşbəxtliyi yaşamaq deməkdir mənim üçün. Ulu Öndərimizin layiqli davamçısı kimi Sizə və rəşadətli Ordumuza bu şərəfli yolda böyük uğurlar arzulayıram. Vətənə verəcəyim candır. Qarabağ Azərbaycandır!".

Laçın sakini Firdovsi Təhməzov: "Hörmətli cənab Prezident, mən 1992-1994-cü illərdə bir qolum olmadan Qarabağ döyüşlərində iştirak etmişəm. Torpaqlarımızın azad edilməsi, otuz ildən bəri narahat qalmış şəhid ruhlarının şad olması, mənfur erməni faşistlərinin öz layiqli cəzasını alması üçün hazırda gedən döyüşlərdə də iştirak etməyə hazıram. Əmrinizdəyəm, Müzəffər Ali Baş Komandan! Qarabağ Azərbaycandır!".

Tərtər sakini Abil Məmmədov: "Möhtərəm cənab Prezident, mən və ailəm Sizin apardığınız siyasəti bəyənir və dəstəkləyirik. Vətənimizin ərazi bütövlüyü uğrunda apardığınız bu haqq mübarizəsində Sizə uğurlar və qələbə arzulayırıq. Bu gün hər bir azərbaycanlı öz Ali Baş Komandanı və Ordusu ilə haqlı olaraq fəxr edir. Uzun illər çəkilən zəhmətin, həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsini, bəhərini görürük. Cənab Prezident, Allah Sizi və əsgərlərimizi qorusun. Qarabağ Azərbaycandır!".

Füzuli sakini Elmin Şıxalıyev: "Müzəffər Ali Baş Komandanımız, Siz xalqımızın yenilməz sərkərdəsisiniz. Artıq hər birimizin ürəyində Sizin qəhrəmanlıq abidəniz ucalıb. İnanırıq ki, Vətən müharibəmizdən qələbə ilə çıxacağıq. Füzuli rayonunun, xüsusilə anadan olduğum Aşağı Seyidəhmədli kəndinin işğaldan azad olunmasına görə Sizə minnətdarlığımı və daim siyasətinizi dəstəklədiyimi bildirirəm. Hər zaman Sizinləyik! Qarabağ Azərbaycandır!".

Qubadlı rayonunun ziyalıları Abbas Abbasov, Edil Eyvazov, Məhəmməd Quliyev, Yaqub Şərifov, Rafiq Yusifoğlu, İlham Şahmuradov, Möhsün Alışov, Fətəli Abdullayev, Aytən Bayramova, Rövşən Hümbətəliyev, Mahirə Abdulla, Xankişi Məmmədov, Cabir Quliyev, Mübariz Xəlilov, Şakir Alıyev, Hacı Nərimanoğlu, Dağbəyi İsmayılov yazırlar: "Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, komandanlığınızla sentyabrın 27-dən başlanan Qurtuluş Savaşı hər gün yeni qələbələrlə xalqımızı sevindirir, vətəndaşlarımıza sonsuz ruh yüksəkliyi bəxş edir. Bizim üçün Azərbaycanın hər qarış torpağı doğmadır, əzizdir. Ancaq etiraf edək ki, dünyaya göz açdığımız, 28 ildən bəri həsrət qaldığımız, əzizlərimizin cismi uyuyan Qubadlının yağı düşməndən azad edilməsi xəbərini Sizin dilinizdən eşitmək, ekranefirdə görüb izləmək bir özgə

# Vətəndaşlar Prezidentə yazırlar: Cəbhədə şanlı Ordumuzun şücaəti, siyasi arenada Sizin qətiyyətiniz, iradəniz hər birimizi qürurlandırır

hissdir. Bizim həyatımızda, mənəvi dünyamızda Qubadlının başqa yeri var. Bu xoş xəbərin bəxş etdiyi duyğunu sözlə ifadə etmək çox çətindir. İnanırıq ki, tezliklə hər birimizin o torpaqları ziyarət etmək, o ellərə dönmək arzumuz gerçəkləşəcəkdir. Xalqımız Laçın, Kəlbəcər, Şuşa, Xankəndinin də yağı tapdağından qurtuluş xəbərini Sizdən eşitmək arzusu ilə yaşayır. Hər birimiz yaxşı anlayırıq ki, bu zəfər, bu qalibiyyət yürüşü yalnız Sizin siyasi iradəniz, qətiyyətinizin, güclü təzyiqlərə sinə gərib maneələri dəf edən zəkanızın bəhrəsidir, bu qələbələr yalnız Sizin hərbi sərkərdəlik bacarığınız, Milli Ordumuza ilham, güc-qüvvət verən komandanlıq məharətiniz sayəsində gerçəkləşib. Sizinlə fəxr edirik, ən böyük minnətdarlığımız Sizədir. Xalqımızın milli qürur hisslərinin özünə qaytarılması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi Sizin adınıza yazılan əbədi şöhrət, şərəf-şandır. Uşaqdan böyüyə hər bir azərbaycanlının qəlbində bu gün bir İlham Əliyev sevgisi boy atıb, ucalıb. İşğaldan azad edilən hər bölgəmizin ən uca zirvəsində Sizin adınız, surətiniz əbədi heykəlləşəcəkdir, çünki bunu yalnız Sizin kimi qüdrətli Prezident, Komandan reallaşdıra bilərdi. Azərbaycanı əsarətə baş əyməyən xalqı ilə, hərb meydanında savaşmağı, döyüşməyi bacaran ordusu ilə, bütün gücü ilə dünyaya tanıdan, qəbul etdirən Siz oldunuz. Hər zaman Sizinləyik, ölkəmizi işıqlı günlərə aparan siyasətinizi dəstəkləyənlərin ön sırasındayıq. Bizlərə bu sevincli və qürurverici günləri yaşatdığınız üçün Sizə sonsuz təşəkkürümüzü bildiririk. Var olun, 100 yaşayın! Allah Sizi, ailənizi qorusun, qalib Prezident, Müzəffər Ali Baş Komandanımız! Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!".

Sumqayıt şəhərindən Nanə Babayeva: "Hörmətli cənab Prezident, oktyabrın 26-da xalqa müraciət edərkən söylədiyiniz nitqlə bir daha xalqımızın Prezidenti olduğunuzu sübut etdiniz. Siz hər dəfə deyirsiniz "Biz haqq, ədalət istəyirik!". Xalq da bu haqq yolunda Sizin arxanızdadır, Sizinlə birlikdədir. Bu işdə Sizin də bütün varlığınızla xalqın yanında olmağınızdan qürur duyuruq. Allah haqq işimizdə bizə, əsgərlərimizə kömək olsun. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!".

Ucar sakini Orxan Hüseynov: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, bu çətin və şərəfli gündə Sizin əmrinizlə əks-hücum əməliyyatı nəticəsində və güclü Azərbaycan Ordusunun şücaəti sayəsində torpaqlarımızın işğaldan azad olunması münasibətilə Sizi ailəmiz və ucarlılar adından səmimi qəlbdən təbrik edirəm. Müzəffər Ali Baş Komandan, Sizin hər dəfə xalqa müraciətinizi səbirsizliklə izləyirik, bilirik ki, bizi sevindirəcəksiniz. Azərbaycanın haqq işində şanlı qələbələrlə yeni tarix yazan Müzəffər Ali Baş Komandanımızla daim qürur duyuruq! Biz zəfər çalacağıq! Nə yaxşı ki, bizim Prezidentimizsiniz! Biz həmişə Sizinləyik! Qarabağ Azərbaycandır!".

Qubadlı sakini Günel Allahverdiyeva: "Möhtərəm cənab Prezident, Siz bu günlərdə Azərbaycan tarixinin ən şərəfli səhifəsini yazırsınız. Cəbhədə şanlı Ordumuzun şücaəti, siyasi arenada Sizin qətiyyətiniz, iradəniz hər birimizi qürurlandırır. Mən Qubadlıdan köçkün düşəndə 8 yaşım vardı. Ürəyimizdə müharibənin açdığı yaralarla böyüdük. Amma bu günlərdə torpaqlarımızın azad olunması xəbəri yaralarımıza məlhəm oldu. Qubadlı sakini kimi öz adımdan və bütün qubadlılılar adından Sizə və müzəffər Ordumuza dərin minnətdarlığımızı bildirirəm. Qarabağ bizimdir, zəfər bizimlədir!".

Qubadlının daha bir sakini Səidə Məhərrəmova: "Müzəffər Ali Baş Komandan, bizə bu qələbə sevinclərini yaşatdığınız üçün minnətdaram. Azərbaycanın üçrəngli bayrağı Şuşada və işğal altında olan digər torpaqlarımızda dalğalanacaq. Azərbaycan xalqı Sizi sevir və Sizinlə qürur duyuruq. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!".

## Rusiyalı analitik: Ermənilər "biz o zaman qalib gəlmişdik, indi də Bakıya kimi gedərik" əfsanəsi ilə yatıb-dururdular

***Rusiyanın "Vzqlyad.ru" nəşri Dağlıq Qarabağda hərbi əməliyyatların başlanmasından ötən bir ay ərzində Ermənistan qoşunlarının məğlubiyyətinin səbəblərini araşdırıb. AZƏRTAC xəbər verir ki, Yevgeni Krutikovun müəllifi olduğu materialda artıq Ermənistan ordusunun geri çəkildiyi vurğulanır. Qeyd olunur ki, Azərbaycan Ordusu Dağlıq Qarabağda müdafiə xəttini yararaq irəliləyib və hazırkı vəziyyət Ermənistan qoşunlarının strateji məğlubiyyətindən danışmağa imkan verir.***


ВЗГЛЯД

Почему Армения терпит поражение в Карабахе

Исполнился ровно месяц с начала новой войны вокруг Нагорного Карабаха. Уже

Müəllif Ermənistan və "DQR"nin kəşfiyyat strukturlarının səriştəsizliyini diqqətə çatdıraraq yazır ki, Azərbaycan artıq yay aylarından Dağlıq Qarabağla sərhədə iki döyüş korpusunu və döyüşqabiliyyətli hissələrini cəmləmişdi. Qoşunların təmas xəttinə yaxın ərazilərdə anbarlar tikilir, təchizat sistemləri çəkilirdi. Ermənistan kəşfiyyatı nə bu, nə də Azərbaycanın çoxlu sayda silah alması barədə də rəhbərliyə düzgün məlumatlar verməmişdi.

Yevgeni Krutikovun fikrincə, ermənilər 1990-cı illərin əvvəllərində qazandıqları uğurların psixoloji təsirindən çıxa bilmirlər. Azərbaycan Ordusunun kəmiyyət və keyfiyyət baxımından üstünlüyünə baxmayaraq, ermənilər "biz o zaman qalib gəlmişdik, indi də Bakıya kimi gedərik" əfsanəsi ilə yatıb-dururdular. Paşinyanın rəhbərliyi dövründə Ermənistan kəşfiyyatının 3 rəhbəri vəzifəsindən azad edilmişdi və tanınmamış "DQR" bəzi rəhbərləri "ruslar bizə lazım deyillər, biz onlarsız da Bakıya piyada gedib çıxarıq" deyirdilər.

Materialda deyilir ki, "DQR"in hava hücumundan müdafiə sistemləri "OSA", "Kruq" və "KUB" komplekslərindən ibarətdir. Lakin Azərbaycan İsrail və Türkiyə istehsalı olan PUA-lar aldıqdan sonra bütün bu yaxınradiuslu köhnəlmiş sistemlər artıq heç nəyə yaramır. Dağlıq Qarabağda hava hücumundan müdafiə sistemləri (HHMS) az, Azərbaycanın PUA-ları isə çoxdur. Üstəlik də Azərbaycan Ordusu ermənilərin HHMS-lərini raketlər və uzaqmənzilli artilleriya ilə sıradan çıxarıb. Ermənistan bu sahədə Azərbaycanla rəqabət apara bilmir. Yerevanın PUA-sının az olması Azərbaycanın batalyon taktiki qruplarına, az qala, paraddakı kimi hərəkət etmək imkanı verir.

Müəllif Dağlıq Qarabağın 25 il əvvəl qurulmuş müdafiə sisteminin arxalandığını, lakin bu illər ərzində Azərbaycan Ordusunun xeyli inkişaf etdiyini nəzərə almadığını vurğulayır. Azərbaycan qoşunlarının Laçının təxminən 10-15 kilometrliyində olduğunu və Laçın dəhlizinin itirilməsinin ermənilər üçün artıq strateji fəlakət olduğunu yazan rusiyalı analitik qeyd edir ki, onsuz da cəbhənin cənubunda xeyli ərazinin itirilməsi ermənilər üçün ciddi siyasi və mənəvi məğlubiyyətdir. Məhz cənub istiqamətdə irəliləyişi rəsmi Bakı biraylıq döyüşlərdə özünün mühüm qələbəsi və əsas siyasi nailiyyəti hesab edə bilər.

Materialda deyilir ki, xəritəyə baxarkən, Azərbaycanın mərkəzdən zərbə endirəcəyi, Qarqarçay boyunca irəliləyərək, Ağdamdan və Xocalıdan keçərək Xankəndinə çıxacağını düşünmək olardı. Elə ermənilər də 25 il ərzində məhz bu zonada müdafiəni bərkitmişdilər. Lakin Azərbaycan Ordusu bu zonada hücuma keçmədi. Burada yalnız qarşılıqlı artilleriya atışmaları müşahidə olunur. Buna görə də ermənilər mərkəzdə böyük canlı qüvvə saxlamağa məcburdurlar.

Müəllif vurğulayır ki, əməliyyat təşəbbüsü tamamilə Azərbaycan tərəfindədir və Azərbaycan Ordusu bütün cəbhə boyunca qüvvələrin yerini dəyişə, yeni planlar həyata keçirə, ehtiyat qüvvə gətirə bilir. Ermənilər isə cənubda "təhlükəsizlik kəməri"ni əldən verəndən sonra əks-hücum barədə düşünə belə bilmirlər. Bütövlükdə, bütün bunlar Ermənistan üçün siyasi sondur. Ermənilər indi yalnız passiv müdafiəyə hazırdırlar. Sonda Yevgeni Krutikov ermənilərin Qarabağda hərbi revanşın Azərbaycanın əsas milli strategiyası olduğunu da nəzərə almadıqlarını qeyd edir.

## Erməni əsgərlər: "Yağışın altında, 3 gündür acıq, nə yemək, nə adam, nə əsgər var"

***Son günlər sosial şəbəkələrdə erməni hərbçilərin narazılığını, acınacaqlı durumunu və fərariliyini əks etdirən videogörüntülər yayılır. SİA-nın məlumatına görə, həmin videogörüntülərdən birində bir qrup hərbçinin başsız qaldığı və 3 gündür ac, susuz əraziyə atıldıqları aydın olur. Hərbçilərdən biri videogörüntünü qeydə alarkən belə deyir:***



"Baxın, ay millət, bu artıq 2-ci gündür. Armavir vilayətindən gələnlər, digərləri də bir biri vilayətlərdən (çəkərək göstərir). Yağışın altında, 3 gündür ac, nə yemək var, nə adam var, nə əsgər var. Gətirib atıblar bura, gediblər. Heç kimin vecinə (söyüş söyür) deyil. 3 gündür vəziyyətimiz budur. Gəlin, silahları götürək düşək aşağı, hərbi hissəyə. Hələ baxın (yeri çəkir).

Göründüyü kimi, Azərbaycan Ordusunun qüdrəti qarşısında pərən-pərən düşən erməni hərbçilərini bu cür acınacaqlı duruma düşüblər.

# "ATƏT-in Minsk Qrupu erməni rəziliyinin himayədarı statusunu "şərəflə" müdafiə etməkdə davam edir"

***Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev ötən gün xalqa növbəti müraciətində ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin həllində bitərəf deyil, konkret olaraq tərəf olduğunu bəyan etdi. Dövlət başçımız çox açıq və konkret şəkildə bəyan etdi ki, münaqişənin həllində yardımçı olmalı olan ATƏT-in Minsk Qrupu ötən bu illər ərzində yalnız və yalnız işğalçının mövqeyini müdafiə etmiş, Azərbaycan torpaqlarının ermənilətr tərəfindən işğalına hüquqi don geyindirməyə çalışmışdır.***




Prezident İlham Əliyev müraciətində aşkar və hər kəsin anlayacağı bir dillə bəyan etdi ki, biz artıq bu cür sonu görünməyən və mənasiz danışıqlardan boğaza yığışmışıq. Buna bir son verilməli idi. Haqqı tapdalanmış Azərbaycan xalqının iradəsi ortadadır. Bizim tələb etdiyimiz haqqı beynəlxalq hüquq da müdafiə edir. Bəs, prosesin yekunlaşmasına, münaqişənin birdəfəlik həll edilməsinə mane olan nədir? Bu maneələri hər birimiz açıq-aydın görürdük. Amma danışıqların birbaşa iştirakçısı kimi Prezident İlham Əliyev daha çox şeylər bilirdi. O, Qarabağ ətrafında hansı mənfur oyunların getdiyini daha yaxşı görürdü. O, daha çox təzyiqlərlə üzləşirdi və bu təzyiqlərə Azərbaycan naminə sinə gərirdi. Təbii ki, münaqişə açıq müstəvi- hərb müstəvisinə keçəndən sonra ATƏT-in Minsk Qrupunda həmsədrliyi bölüşən ölkələr özlərinin əsl simalarını gizlədə bilmədilər. Maska yırtıldı və bu həmsədr maskasının arxasından erməni üfunəti yayılmağa başladı. Bu yerdə təbii ki, Azərbaycan Prezidenti İlham Əliyev daha susa bilmədi.

Nəhayət, Qarabağ ətrafında buzlar sentyabrın sonlarından əriməyə başladı. Elə bu buzların əriməsində Ermənistanın, erməni təxribatının, ermənilərin daha çox torpaq qoparmaq hərisliyi də əsas rol oynadı. Lakin, Azərbaycanın qətiyyətli iradəsi ortada idi. Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusu erməni təxribatına qarşı layiqli cavab verdi və bu atəşkəs-atəşkəs oyunundan birdəfəlik yaxa qurtarmaq üçün əkshəmləyə keçdi. Bu, Azərbaycan xalqının uzun illər gözlədiyi gün idi. Ermənilər it kimi qaçır, çaqqal kimi hücuma cəhd edirdilər. Ermənilərin gözləntiləri, erməni ordusu haqqında mif əsgərlərimizin ilk həmləsindəcə sabun köpüyünə döndü. Bu yerdə tülkü xislətli ermənilər yenidən havadarlarının ətəyindən yapışdılar, Ali Baş Komandanımız demişkən, vasitəçilərin dabanlarını yalamağa başladılar. Təbii ki, həmişə sülh tərəfdarı olmuş Azərbaycan münaqişənin dinc yolla həllinə yönəlik danışıqlara razılıq verdi. Bəs, nəticəsi?

Ermənistan, onun başıpozuq, azğın, terrorçu dəstələri ilk dəfə olaraq Moskvada əldə olunmuş humanitar atəşkəs rejimini pozdular. Birinci atəşkəs ermənilərin özlərinin aramsız yalvarışları sayəsində Rusiyanın vasitəçiliyi ilə əldə olundu. Moskvada atəşkəs haqqında bəyanatın mətni elan olunandan bir neçə saat sonra ermənilər onu dəfn etdilər. Növbəti dəfə atəşkəs haqda razılıq ermənilərin bu münaqişədə açıq-aşkar himayədarı Fransanın vasitəçiliyi ilə əldə edildi. Bu dəfə isə rəsmi Paris özünə kiçik bacı hesab etdiyi ermənilərin ənənəvi həyasızlığı ilə üzləşməli oldu.

Nəhayət, ATƏT-in digər həmsədi olan ABŞ, taleyi əvvəlcədən hər kəsə bəlli olan bu missiyanı öz üzərinə götürdü. Görüşdən sonra D.Trampın erməni seçicilərin könlünü almağa hesablanmış bəyanatı gözlənilən idi. Elə Trampın "erməni sevgisi" üzərində köklənmiş nikbin notlu bəyanatı bu danışıqlarda əldə olunmuş "nəticəyə" deyil, erməni seçicilərin dəstəyinə hesablanmışdı. ABŞ-da münaqişənin həllinə dair yüksəksəviyyəli gurultulu bəyanatlar elə erməni toplarının gurultusu altında eşidilməz oldu. Rusiya Federasiyası Senatının üzvü Puşkovun əvvəlcədən dediyi kimi, ABŞ nəyə istinad edirdi və rəsmi Vaşinqton ermənilərin ipinin üstünə odun yığanda onun üzərinə Yerevan tərəfindən benzin töküləcəyini bilmirdimi.?

Və nəhayət, beynəlxalq birliyin erməniləri ipə-sapa yatırmaq, onları beynəlxalq hüququn sərt tələblərinə riayət etmək çağırışı ənənəvi fiaskosunu yaşadı. Və siz vasitəçilər, erməni havadarları, erməni sevərlər nə vaxtadək bütün beynəlxalq norma və prinsipləri, humanitar tələbləri saymazyana, kobudcasına tapdalayan Ermənistanın qudurğan davranışlarına dözəcəksiniz? Bu yerdə bəlkə də, etik çərçivədən bir qədər uzaq olsa da, belə bir sual yerinə düşür. Sizlər - ATƏT-in Minsk Qrupunun həmsədrləri, erməni havadarları, nə vaxta qədər özünüzü alçaldacaqsınız. Nə vaxda qədər rəzillik nümayiş etdirəcəksiniz.

***Hüseyn Paşayev***
***YAP Mətbuat xidmətinin rəhbəri,***
***YAP Siyasi Şurasının üzvü***

## Azərbaycanlı alimin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məqaləsi İordaniyada çap olunub

AMEA - Fəlsəfə və Sosiologiya İnstitutunun, Davamlı inkişafın fəlsəfəsi və sosiologiyası şöbəsinin müdiri, f.e.d, professor Sakit Hüseynovun "Dağlıq Qarabağ münaqişəsi və Ermənistan siyasi-hərbi hakimiyyətinin işğalçılıq siyasəti" adlı məqaləsi İordaniya Haşimilər Krallığının, geniş oxucu kütləsinə malik "Neyruz" xəbər agentliyində nəşr edilib. Prof. Sakit Hüseynov öz məqaləsində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi məsələlərə toxunmuş, həmçinin keçən əsrin 80-ci illərin sonundan etibarən ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi siyasi və hərbi təxribatlar haqqında həqiqətləri çatdırıb.




Bununla yanaşı, alim məqalədə Ermənistan silahlı qüvvələrinin Xocalı şəhərində dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımı qeyd edib, habelə 1988-1993-cü illər ərzində erməni işğalı nəticəsində Azərbaycan Respublikasına dəymiş maddi və mənəvi zərərlər haqqında məlumatları paylaşıb.

Prof. S.Hüseynov öz məqaləsində BMT-nin Təhlükəsizlik şurasının Ermənistanın işğalçılıq addımlarını pisləyən dörd qətnəmani (822, 853, 874, 884) qeyd edib və bu Qətnamədəki işğal olunmuş Azərbaycan torpaqlarından erməni hərbi qüvvələrinin dərhal çıxarılması barəsində müddəaları vurğulayıb.

Bununla yanaşı prof. S.Hüseynov öz məqaləsində Təhlükəsizlik şurasının və digər beynəlxalq təşkilatların Qarabağ münaqişəsi ilə bağlı çıxardığı qərarların icra olunmadığını, buna rəğmən Ermənistan siyasi-hərbi hakimiyyətinin işğalçılıq siyasətini davam etdirdiyini, dünya güclərinin bu məsələdə ikili standartlar tətbiq etməsi ilə bağlı problemləri qeyd edib. Məqalənin sonunda prof. S.Hüseynov Ermənistanın cari ilin, sentyabr ayının 27-dən etibarən Azərbaycanın müxtəlif şəhərlərinə (Gəncə, Tərtər, Naftalan, Mingəçevir və s.) hücum etməsi və bu hücumlar nəticəsində həlak olmuş və yaralanmış dinc əhaliyə dəymiş maddi və mənəvi zərərlər haqqında məlumatları ərəbdili oxuculara çatdırıb. https://www.nayrouz.com/post.php?id=174794#.X5QMArzEPxA.whatsapp

## "The Jerusalem Post" qəzeti Azərbaycandakı tolerantlıqdan, Ermənistandakı antisemitizmdən yazır


JERUSALEM POST CORONAVIRUS US ELECTIONS ISRAEL NEWS WORLD NEWS MIDDLE EAST U.S. POLITICS

Living in Azerbaijan as a Jew versus being Jewish in Armenia

It is a well-known fact that there was virtually no antisemitism in Azerbaijan.

By ROMAN GUREVICH OCTOBER 26, 2020 21:31

Street life at a bazar in Baku, the capital of Azerbaijan, October 14, 2019. (photo credit: NATI SHOHAT/FLASH90)

Advertisement

Jira Service Desk Try it for free

On October 8, Ashkenazi Jews living in Azerbaijan gathered to pray for the

"The Jerusalem Post" qəzetində Azərbaycanda və Ermənistanda yəhudilərin yaşayışından bəhs edən məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, müəllif Roman Qurieviç oktyabrın 8-də Azərbaycanda yaşayan Aşkenazi yəhudilərinin Azərbaycan Ordusunun Dağlıq Qarabağ uğrundakı müharibədə qalib gəlməsi üçün bir yerə toplaşaraq dua etdiklərini bildirir.

Yazıda qeyd olunur ki, Bakının bir çox yerlərində yəhudi alimlərinin şərəfinə abidələr ucaldılıb. Bilinən bir faktdır ki, Azərbaycanda antisemitizm yoxdur. Məqalədə ermənilərin tarixən Azərbaycanda sülh şəraitində yaşadıqları diqqətə çatdırılır. Minlərlə azərbaycanlının isə Ermənistandakı yaşayış yerlərindən qovulduğu qeyd edilir. Müəllif "Pew" Araşdırma Mərkəzinə istinadla Ermənistanın yəhudilərə qarşı ən az tolerant olan ölkə olduğunu vurğulayır. Hətta ermənilərin 32 faizinin yəhudiləri həmvətənləri kimi görmədiklərini bildirir. Həmçinin antisemitizm indeksinə görə Ermənistanın keçmiş sovet ölkələri arasında ən yüksək pillədə olduğu vurğulanır. Yerevandakı Holokost abidəsinin dəfələrlə vandalizm aktlarına məruz qaldığı diqqətə çatdırılır. Vurğulanır ki, Ermənistan nasizmin tərəfdarlarına milli qəhrəman kimi baxır. Müəllif fikirlərini yekunlaşdıraraq Azərbaycan və Ermənistan haqqında bunları deyir: Müharibənin iki tərəfində biz nə görürük? Bir tərəfdə heç vaxt antisemitizmin olmadığı, İsraili enerji resursları ilə təmin edən və öz ərazi bütövlüyü uğrunda mübarizə aparan Azərbaycan, digər tərəfdə isə antisemitizmin mövcud olduğu, qapalı və monoetnik, qonşusunun torpaqlarını işğal etmiş və mülki əhalini atəşə tutan Ermənistan.

## Erməni ordusunda təlaş: smartfonlar yığılır



İşğalçı Ermənistan ordusunun Qarabağ cəbhəsində aldığı ağır və sarsıdıcı məğlubiyyətləri, habelə təchizat sarıdan ciddi korluq çəkmələri, komandirlərin əsgərlərə etinasız münasibətləri, hərbçilərin mövqelərini qoyub-qaçmaları sosial şəbəkə seqmentlərində sürətlə yayıldıqdan sonra düşmən ölkənin hərbi-siyasi dairələri kəskin qorxuya düşüblər. SİA xəbər verir ki, bu barədə yazan "Sputnik Armeniya"ya görə, artıq erməni hərbi polisi həmi məsələ ətrafında araşdırmalara başlayıb. Xatırladaq ki, işğalçı rejimin ordusundakı vəziyyət dözülməz dərəcədədir və demək olar ki, hər gün erməni seqmentlərində bənzər videolar yayılır. Əbəs deyil ki, Ermənistanın müdafiə nazirliyi ötən gündən başlayaraq, hərbçilərdən smartfonların yığılması əmrini verib.

***Rövşən***

## Erməni "milli qəhrəmanı" gəbərdildi



Ermənistan ordusunun 18-ci motoatıcı diviziyasının qərargah rəisi, "Ermənistan və Artsax"ın "milli qəhrəmanı", polkovnik Sergey Şakaryan məhv edilib. SİA xəbər verir ki, onun ölməyini erməni telegram mənbələri də təsdiqləyirlər. 17 yaşından Birinci Qarabağ müharibəsində Füzulidə və Xocavənd istiqamətində gedən döyüşlər zamanı Şakaryan təxribat-diversiya aksiyalarını həyata keçirib, dinc əhaliyə qarşı terrorların törədilməsində aktivliyi ilə seçilib.

# Vüqar Rəhimzadə: ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın çirkin əməlləri riyakarlığının göstəricisidir



***"Azərbaycan Vətən müharibəsinin 30-cu gününü yaşayır. 30 ildir işğalçı Ermənistanın beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq torpaqlarımızın 20 faizini işğal altında saxlamasına, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətində yaşamasına göz yuman dünya ictimaiyyətindən haqqın, ədalətin bərpasını istəyən Azərbaycan bu 30 gündə Ordumuzun Ermənistanın hərbi təxribatlarının qarşısını qətiyyətli əks-hücum əməliyyatları ilə alması nəticəsində həm döyüş meydanında malik olduğu potensial imkanları, həm də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının mümkünlüyünü nümayiş etdirir. İşğalçı Ermənistan bugünədək danışıqları imitasiya üçün aparmış, vaxt uzatmaqla işğalçılıq siyasətini davam etdirmişdir. Ermənistanın faşist siyasəti özündə başqa xalqlara və millətlərə kin, nifrət bəsləməyi, başqalarının ərazilərinə göz dikməyi ehtiva edir. Onun bu gün yeni ərazilər iddiası ilə müharibə planını ortaya qoyması da deyilənlərin təsdiqidir."***

Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində geri çəkilən Ermənistan məğlubiyyəti ilə barışmayaraq mülki əhalini, yaşayış məntəqələrini raket atəşinə tutmaqla faşist siyasətini bir daha təsdiqlədi: "Azğın və xəyanətkar düşmənə sarsıdıcı zərbələr endirilir, ərazilərimiz işğalçılardan təmizlənir. Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərlərinin, eləcə də 100-dən artıq yaşayış məntəqələrimizin işğalçılardan azad edilməsi, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin ələ keçirilməsi xalqımıza böyük inam bəxş edir."

Baş redaktor onu da əlavə edib ki, özbaşınalıq, rüşvət verib koronavirus adı ilə ordudan yayınma halları, muzdluların, eyni zamanda, əsgər çatışmazlığından yaşlıların və uşaqların döyüşlərə cəlb olunması Ermənistanın ordusunun aydın mənzərəsini yaradır. Ermənistan tərəfindən muzdlu döyüşçü qismində müxtəlif terror təşkilatlarının üzvlərinin, xarici ölkə vətəndaşlarının işğal olunmuş ərazilərimizə gətirilərək hərbi əməliyyatlara cəlb olunması ilə bağlı tutarlı faktlar mövcuddur. Həmçinin bu faktlar da təsdiqlənir ki, Ermənistanın təşəbbüsü ilə PKK terror təşkilatı işğal olunmuş torpaqlarımızda hərbi bazalar qurur və Azərbaycana qarşı vuruşur.

V.Rəhimzadə inkaredilməz olan bu həqiqəti qeyd edib ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin terrorçu və faşist mahiyyəti dəyişməz olaraq qalır. Bunu hər kəs və bütün dünya bilməlidir: "Ona görə də dünya birliyi ikili standartları kənara qoyub Ermənistanın özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli, münaqişənin ədalətli həlli üçün BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələr əsasında təcavüzkara sanksiyalar tətbiq etməli, işğalçı dövlətin Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi beynəlxalq cinayətlərə laqeyd qalmamalı, bu ölkənin cinayətkar rəhbərliyi məsuliyyətə cəlb olunmalı və törətdiyi qəddar əməllərə görə cavab verməlidir. Möhtərəm Prezidentimizin müsahibələrində və xalqa müraciətlərində də bu məqam öz əksini tapır ki, əgər bunu beynəlxalq birlik etməyəcəksə, Azərbaycan özü cinayətkarları cəzalandıracaqdır."

Baş redaktor vurğulayıb ki, dövlətimizin başçısı İlham Əliyevin Yaponiyanın "Nikkei", Fransanın "Figaro" qəzetlərinə, ABŞ-ın "Fox News" televiziya kanalına müsahibələrində, eyni zamanda, Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirədə, oktyabrın 26-da xalqa müraciətində də münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən dövlətlərin neytrallığı qorumamasına diqqəti yönəldərək bildirmişdir ki, əgər hər hansı bir ölkə vasitəçi rolunu üzərinə götürürsə, bu ölkə neytral olmalıdır. Əgər o, neytral deyilsə, vasitəçi ola bilməz: "Ölkə Prezidenti ABŞ-ın "Fox News" telekanalına müsahibəsində bir daha yüksək intellekt, məlumatlılıq, natiqlik bacarığı, diplomatik məharət nümayiş etdirmiş, qərəzli və dolaşıq suallar verən jurnalistə sözün əsl mənasında master-klass keçmişdir. Cənab İlham Əliyev Azərbaycan Ordusunun müzəffər Ali Baş Komandanı kimi həm hərb meydanında öz sözünü deyir, həm də siyasi lider kimi informasiya meydanında ölkəmizin mövqeyini ustalıqla izah və müdafiə edir, haqq səsimizi bütün dünyaya çatdırır. Dövlətimizin başçısı dünyanın aparıcı kütləvi informasiya vasitələrinə çoxsaylı müsahibələrində Azərbaycanın mövqeyini, atılan addımların məntiqini tam aydın şəkildə, səlis izah edir, düşmənin əsassız iddialarını əks-arqumentlərlə yerindəcə ifşa edir."

V.Rəhimzadə bu fikri də xüsusi qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyevin nüfuzlu beynəlxalq media qurumlarına, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə məxsus mətbu orqanlara müsahibələri Rusiya, ABŞ və Fransa auditoriyasına həqiqətlərin çatdırılmasına bir daha imkanlar yaratmış, işğalçı dövlətə bugünədək verilən dəstəklərin əsl mahiyyətinə işıq salmışdır: "Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətləri əks etdirdiyinə görə Fransanın TF1 telekanalının Fransada yaşayan ermənilərin ciddi təzyiq və təhdidinə məruz qalması nə dərəcə demokratiyanın tələblərinə, beynəlxalq hüquq normalarına uyğundur? Bu hal Fransanın imicinə, söz və məlumat azadlığına böyük zərbədir. Fransa hökuməti "Şarl Ebdo" jurnalını müdafiə etdiyi kimi, TF1 kanalını da müdafiə etməli, azğınlaşmış erməni millətçilərinə, erməni icmasına öz yerini göstərməlidir. Necə olur ki, hansısa mətbu orqanda İslam dini təhqir edilən zaman bütün dünyada milyonlarla müsəlmanın haqlı tələbinə məhəl qoyulmur və bu mövqe söz azadlığı ilə əsaslandırılır, lakin 5-10 min erməninin hikkəsi əsasında ölkənin aparıcı telekanalından birində söz azadlığı boğulur."

Baş redaktor Fransanın vasitəçiliyə uyğun addım atmadığını önə çəkərək bildirib ki, məlum olduğu kimi, bu günlərdə BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı baş tutmuş müzakirələrdə Qoşulmama Hərəkatının və eyni zamanda, hazırda Təhlükəsizlik Şurasının üzvü olan ölkələr - İndoneziya, Tunis, Niger, Dominikan Respublikası, Vyetnam, Cənubi Afrika Respublikası və Sent-Vinsent və Qrenadin təklif edilən sənəd layihəsinə Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş qətnamələrinə istinadın daxil edilməsinə dair israrlı mövqe nümayiş etdiriblər. Nəticədə Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri hazırladıqları bəyanat layihəsini geri götürməyə məcbur olublar: "Ermənistan ilə Azərbaycan arasında yaşanan münaqişə nəticəsində beynəlxalq təşkilatlardan tutmuş region və dünya ölkələrinə qədər kimin hansı mövqedə olduğu daha aydın görünür. Atəşkəsin bərpası üçün danışıqlara hazır olduğunu bildirən Fransa sentyabrın 27-dən bugünədək ikili standartlara əsalsanan siyasətini daha qabarıq şəkildə büruzə verir. Fransa erməni diasporunun güclü olduğu ölkələrdən biridir, eyni zamanda, ermənipərəst siyasəti ilə daim diqqətdə olub. Reallıq budur ki, bu gün Prezident Emmanuel Makron ermənilərə hədsiz dərəcədə sevgisi və türk dünyasının iki aparıcı dövlətinə - Türkiyə və Azərbaycana qarşı nifrəti ilə hətta öz sələflərini də kölgədə qoyub. Münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ölkə üçün belə addımların atılması beynəlxalq hüququn norma və prinsiplərinə tamamilə ziddir."

V.Rəhimzadə Fransanın qeyri-konstruktiv siyasəti ilə bağlı bu məqamı da diqqətə çatdırıb ki, Azərbaycana qarşı hərbi təcavüzün davam etdiyi, rəsmi Yerevanın ballistik raketlərdən istifadə etməklə mülki Azərbaycan əhalisinə qarşı terror və kütləvi hərbi cinayətlər törətdiyi bir məqamda Fransa parlament nümayəndə heyətinin Ermənistana səfəri təxribat xarakteri daşıyır. Fransanın bu addımı onun vasitəçilik missiyasına ziddir.

"Bu kimi faktları xeyli sayda sadalamaq olar" söyləyən Vüqar Rəhimzadə bildirib ki, Fransanın danışıqların bərpasına çağırışları, BMT Təhlükəsizlik Şurasının iclasının keçirilməsi üçün səylər göstərməsi və sair kimi birtərəfli addımları riyakarlığının göstəricisidir. Dövlətinin, xalqının gələcəyini düşünən ölkə rəhbəri heç zaman beynəlxalq münasibətlərdə belə xaosun yaranmasına çalışmaz. Azərbaycan Ordusu davamlı qələbə xəbərləri ilə Paşinyanla bərabər ona havadarlıq edən Fransa kimi mövqeyi beynəlxalq hüquq normalarına zidd olan dövlətlərin də işğalçı planlarını alt-üst edir. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində ordumuz erməniləri işğal altında olan torpaqlarımızdan qovur və dövlətimizin başçısının dediyi kimi, qovmağa davam edəcək. BİZ ZƏFƏR ÇALACAĞIQ! QARABAĞ BİZİMDİR! QARABAĞ AZƏRBAYCANDIR!

SORĞU+FAKT

# Rusiyalılar Paşinyana "YOX" deyir!

Rusiyanın tanınmış hərbi-siyasi eksperti, Kremlə yaxınlığı ilə seçilən politoloq İqor Korotçenko teleqram səhifəsində anonim sorğu keçirməklə Rusiya vətəndaşlarından ölkələrinin rəsmi siyasətində Ermənistanın baş naziri Nikol Paşinyana dəstəyin göstərilib-göstərilməməsi barədə sual ünvanlayıb. SİA xəbər verir ki, sorğuda iştirak edən 5030 nəfər rusların nəhəng çoxluğu Paşinyana antipatiya hisslərini nümayiş etdirməklə, Rusiyanın siyasətində erməni baş nazirə dəstəyin göstərilməsinin əleyhinə səs veriblər. Sorğunun nəticələrinə görə, cəmi 4% Rusiya vətəndaşı köməkliyin göstərilməsinə səs versə də, 96%-i buna qarşı çıxaraq "yox" cavabını veriblər. 1% Rusiya vətəndaşı isə suallara cavab verməkdə çətinlik çəkdiklərini bildiriblər.




**Rusiya rəsmi siyasətində Paşinyana etimad göstərmir və onun siyasətinə heç bir dəstək vermir**

Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan hakimiyyətə yiyələnməkdən ötrü milyarder Corc Soros qarşısında öhdəlik götürüb və onun dəstəyi ilə əvvəli Serj Sarqsyan hakimiyyətini "məxməri inqilab" vasitəsi ilə devirib. O hakimiyyəti ələ almaq üçün ilk günlərdən anti-Rusiya siyasətinə üstünlük verərək, hətta Rusiyanın Gümrüdəki hərbi bazasını ölkədən çıxaracağı bəyanatını da səsləndirib.

Eyni zamanda, Rusiya da rəsmi siyasətində Paşinyana etimad göstərmir və onun siyasətinə heç bir dəstək vermir. Əbəs deyil ki, Qarabağ cəbhəsində başlayan müharibə müddətində belə, Ermənistanın bir sıra KİV-ləri anti-Rusiya siyasətinə yönəlik çoxsaylı yazılarla, iftira və böhtanlarla çıxış edirlər. Ermənistanın KTMT-nin üzvü olmasına rəğmən, rus sülhməramlılarının, yaxud qoşunlarının Azərbaycanın Qarabağ ərazisinə daxil olması yönündə sərəm tələblər irəli sürən erməni hökuməti bu dəstəyi də almadıqda sonra, yəni Rusiyannın buna heç bir hüququ olmadığı barədə rəsmi bəyanatlarından sonra Ermənistanda anti-Rusiya siyasəti daha aşırı şəkildə yürüdülməyə başlayıb.

Lakin buna baxmayaraq, Rusiyada yaşayan erməni mafiyaları qeyri-qanuni yollarla, "humanitar yardım" adı altında bu ölkədən Ermənistana silah-sursat göndərirlər. Artıq Azərbaycanın dövlət başçısı, Prezident İlham Əliyev öz çıxış və müsahibələrində bu barədə bəyanatlar səsləndirib, Rusiya tərəfinin qanunları pozan silah qaçaqmalçılarının cəzalandırılmaları tələbini irəli sürüb. Ancaq hər şeyə rəğmən, görünən budur ki, artıq Rusiyanın sadə vətəndaşları da erəmnilərin aşkar həyasızlıqlarına dözməkdə səbrlərinə hakim ola bilmirlər və Korotçenkonun keçirdiyi anonim sorğunun məntiqi nəticələri də rəqəmləri, faziləri ilə özünü kifayət qədər sübuta yetirib.

***Rövşən RƏSULOV***

# "İşğaldan azad edilmiş ərazilər iqtisadiyyatımıza milyardlar qazandıracaq"



Azərbaycanın işğaldan azad edilmiş əraziləri ölkə iqtisadiyyatına milyardlarla dollar gəlir gətirəcək. SİA-nın məlumatına görə, bunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin direktoru Vüsal Qasımlı deyib. V.Qasımlı bildirib ki, işğal edilmiş ərazilərimiz azad edildikdən sonra orada olan torpaq, su, meşə resursları, qızıl və filiz ehtiyyatları və digər reurslar ölkə iqtisadiyyatına qoşulduqdan sonra Azərbaycana milyardlarla dollar gəlir gətirəcək. Mərkəz direktoru qeyd edib ki, işğal edilmiş ərazilərimizdə 155 adda filiz ehtiyyatları, 6 qızıl ehtiyatı, çoxlu sayda polimetal ehtiyyatları, mineral su ehtiyyatarı və digər ehtiyyatlar iqtisadiyyatımızın inkişafına böyük töhfə verəcək.

V.Qasımlı vurğulayıb ki, ilkin hesablamalara görə, işğal edilmiş ərazilərimizdə olan təkcə qızıl ehtiyyatları 132.4 tondur və indiki qiymətlərlə bunun dəyəri 8 milyard ABŞ dolları edir: "Eyni zamanda, işğal edilmiş ərazilərdə olan digər filiz ehtiyyatları həm də metallurgiyanın və dağ-mədən sənayesini inkişaf etdirəcək ki, bu da miyardlarla dollar gəlir gətirəcək. Kənd təsərrüfatı sahəsinə böyük müsbət təsirlər olacaq. İşğal edilmiş ərazilərdəki 240 min hektar, eyni zamanda ona qonşu olduğu üçün istifadə edilə bilməyən 140 min hekatar kənd təsərrüfatına yararlı torpaqlar istifadə ediləcək. Turizm sektorunun inkişafı, o cümlədən, musiqidən tutmuş xalçaçılığa qədər kreativ sənayenin inkişafı üçün böyük imkanlar açılacaq, bir çox sahələr inkişaf edəcək. Ümumilikdə, müharibədə əldə edilən qələbələrin bizə gətirdiyi ruh yüksəkliyi, özünəinam inkişafımızla bağlı irəliyə atılan böyük bir addımdır".

# Qələbəyə aparan yol

***Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, Azərbaycan xalqının və Azərbaycan dövlətinin xilaskarı, ümumilli liderimiz Heydər Əliyev Azərbaycanda 2-ci dəfə hakimiyyətə gəldikdən dərhal sonra Qarabağ problemini Azərbaycanın bir nömrəli problemi elan etdi. Hakimiyyətdə olduğu 10 il ərzində o, ümümmilli problemin həlli üçün çox işlər gördü. Lakin mövcud reallıqlar, vaxt və ömür ona problemi həll etmək üçün imkan vermədi.***



*Ramiz Göyüşov*
*YAP Binəqədi rayon təşkilatının sədri*

2003-cü ilin prezident seçkiləri ərəfəsində səhhəti ilə əlaqədar Ulu Öndərimiz Heydər Əliyev seçkilərdə iştirak edə bilmədi. O zaman ümumilli liderimiz Azərbaycan xalqına müraciət etdi. Həmin tarixi müraciətdə deyilirdi: "Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son 10 ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyiniz ilə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Prezident seçkiləri ərəfəsində İlham Əliyev Azərbaycan xalqına müraciətində demişdi: "Əgər siz mənə bu inamı, etimadı göstərsəniz mən Heydər Əliyevin siyasətinə sadiq qalacağam, bütün istiqamətlər üzrə onun yolu ilə gedəcəyəm". Azərbaycan xalqı Ulu Öndərin və İlham Əliyevin çağırışına mütəşəkkilliklə cavab verərək böyük üstünlüklə İlham Əliyevi prezident seçdilər. O günlərdən bizi düz 17 il ayırır. Bu illər ərzində İlham Əliyev prezident kimi bu yolda uğurla, inamla, qətiyyətlə addımlamaqda, dövlət siyasətində, idarəetmədə, beynəlxalq siyasətdə xarüqələr yaratmaqdadır. Bu yazıda mən son 17 il ərzində onun yaratdığı möcüzələrdən söhbət açmaq fikrində deyiləm. Çünki yaradılanları yazıya köçürmək üçün cild-cild kitablar yazmaq lazımdır. Əminəm ki, gələcəkdə bu möhtəşəm şəxsiyyətin qurduqlarını, yaratdıqlarını salnaməçilər kitablara köçürəcək. Mənim məqsədim cənab İlham Əliyevin ölkənin 1 nömrəli probleminin həlli istiqamətində gördüyü işlərdən söhbət açmaqdır. Ulu Öndər tərəfindən elan olunan, lakin onun dövründə həllini tapmamış Qarabağ problemi barədə. Qarabağ problemi SSRİnin dağılması ərəfəsində baş qaldıran, sonra isə possovet məkanında Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgə, Krım, Luqansk, Dovetsk və bu kimi separatçı proseslərlə müşayət olunan və həlli çox çətin olan bir problemdir. İlham Əliyevə - bu gənc dövlət başçısına, Sovet İttifaqından, təkcə Sovetlərdən yox, kökü 200 ildən çox zamana gedib çıxan zamandan dərin bir yara, ağır bir problem miras qalmışdı. Hətta 2003-cü ildə prezident seçildikdən sonra da, Qarabağ probleminin həllindən söz düşəndə cəmiyyətdə belə bir fikir səslənirdi. "Əgər bu problemi Heydər Əliyev kimi nəhəng həll edə bilmədisə İlham Əliyev həll edə bilməyəcək"... Bu problemi yaradanlar onu elə bir düyünə salmışdılar ki, artıq onun həlli iki ölkənin səlahiyyət dairəsindən çıxaraq beynəlxalq probleme çevrilmişdir. Qarabağ düyününün həlli BMT-də, onun Təhlükəsizlik Şurasında müzakirə olunsa da işğalçı erməni qoşunlarının Azərbaycan torpaqlarından çıxarılması barədə Təhlükəsizlik Şurasını 4 qətnaməsi olmasına baxmayaraq, dünyanı idarə edən bu boyda təşkilat bu problemi həll edə bilməmişdi. Nəhayət bu problemin həlli ATƏT-ə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, 1992-ci ildə bu təşkilat tərəfindən yaradılan on bir dövlətin təmsil olunduğu Minsk qrupuna həvalə edilmişdi. İndi tarixə səyahət etsək görərik ki, bu yerlərə gəlmə olan Qarabağ ermənilləri son yüz ildə bir neçə dəfə Azərbaycandan ayrılmaq barədə məsələ qaldıraraq ixtişaşlar törətmişdilər. Onların sonuncu dalğası 1988-ci ilin fevralından başlanmışdı. Bu o zaman idi ki, Azərbaycan xalqının son yüz ildə yetirdiyi ən böyük tarixi şəxsiyyət, ictimai-siyasi və dövlət xadimi olan Heydər Əliyev artıq mənfur Mixail Qarbaçov tərəfindən hakimiyyətdən kənarlaşdırılmışdı. Qarboçovun ətrafına toplanmış daşnak ermənilər bundan istifadə edərək Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistana birləşdirilməsi fikrini səsləndirməyə başlamışdılar. Bu fikir səslənəndə hələ Sovet İttifaqı sağ idi. Həm də bu fikirlərin məhz Fransada səslənməsi təsadüfi deyildi. Qarabağda baş verən hadisələr çox sürətlə cərəyan edirdi. 1988-1993-cü illəri Azərbaycan tarixinin faciələrlə dolu ən ağır illəri idi və əslində Qarabağın son taleyi də o illərdə həll edilmişdi. Həmin illərdə hakimiyyət başında olan başsız, səriştəsiz, milli heysiyyatlardan uzaq olan rəhbərlərin məsuliyyətsizliyi, hakimiyyət uğurunda mübarizələr, orduda başıpozuqluq, torpaqlarımızın itirilməsi ilə nəticələnmişdi. Ölkənin Cənub və Şimal bölgələrində baş qaldıran seperatçılıq hərəkatı, ölkənin vətəndaş müharibəsi həddinə gətirib çıxarmış, ölkə parçalanmaq təhlükəsi ilə ilə üzləşmişdi. 1993-cü ildə ölkənin parçalamaq təhlükəsi ilə üz - üzə qaldığı bir zamanda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev nə qədər cəhd etsə, çarpışsa da Qarabağ probleminin həllinə nail ola bilmədi. Mövcud şərait, vaxt və ömür imkan vermədi. İlham Əliyev dövlət başçısş kimi nəhəng bu qarşısında çox ağır bir problem dururdu. Bu problemi həll etmək üçün çox iş görmək lazım idi. Lakin bütün bunların hamsından əvvəl ona səbr, təmkin, dözüm, iradə qətiyyət və cəsarət lazım idi. İlham Əliyev bu keyfiyyətlərə malik idi. Bu keyfiyyətlər ona birinci növbədə genetik ötürülmüşdür. İkincisi o, uzun illər atası - ümumilli liderimiz Heydər Əliyevdən dərs almışdı. Həyat dərsi, insanlıq dərsi, mübarizə dərsi, siyasət dərsi, idarəetmə dərsi, sərkərdəlik dərsi və daha nələr... Bəli, İlham Əliyev hakimiyyətdə olduğu 17 il ərzində Qarabağ problemin həllinə doğru hər gün bir addım atdı. Ulu Öndərimizin müəllifi olduğu Azərbaycanın neft strategiyasını davam və inkişaf etdirmək istər strateji, istər siyasi, istərsə də iqtisadi aspektdə Qarabağ probleminin həlli istiqamətində atılan ən mühüm addımlar idi. Qarabağ probleminin həlli ilə əlaqədar ümumilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş təməl prinsiplərini əsas götürərək Azərbaycanın qəti mövqeyini bəyan etdi: "Azərbaycan ərazisində ikinci erməni dövləti yaradıla bilməz, Azərbaycanın ərazi bütövlüyü müzakirə obyekti ola bilməz. Dağlıq Qarabağ probleminin həllinə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində baxıla bilər. Buna qədər isə işğal olunmuş torpaqlar qeyd-şərtsiz BMT TŞ-nın qətnamələrinə uyğun boşaldılmalı və işğalçı erməni qoşunları ərazidən çıxmalıdır." Problemin həllinə yönəlmiş qəti və dəyişməz mövqeni bəyan etdikdən sonra Cənab Prezident problemin həlli yolunda fəaliyyətə başladı. Onu da qeyd etməliyəm ki, problemin sülh yolu ilə həllinə Azərbaycan və onun dövlət başçısı cənab İlham Əliyev hər zaman sadiq olmuş, bununla yanaşı həm də dəfələrlə bəyan etmişdir ki, əgər sülh və danışıqlar yolu ilə həllini tapmazsa Azərbaycan problemin hərbi yolla həll etmək hüququnu özündə saxlayır.

Azərbaycan düz 26 il münaqişənin sülh yolu ilə həll variantına sadiq qaldı. Bu illər ərzində Ermənistan hər dəfə danışıqların həlledici məqamında bir bəhanə gətirərək və ya bir hadisə törədərək danışıqları dalana dirədi. Düşmən ölkədə 5 dəfə prezident seçkiləri keçirildi. 4 müxtəlif erməni millətçisi Ermənistana rəhbərlik etdi. Lakin bunların heç biri konstruktiv addım atmadı, atmaq istəmədi. Çünki bunların hər biri, hər şeydən əvvəl erməni idi. Erməni xisləti, hiyləgərlik, xəyanət, arxadan zərbə, faşist psixologiyası onların hər birinin ümumiləşmiş xüsusiyyətləri idi. Bu illər ərzində İlham Əliyev erməni dığalarının kaprizlərinə səbrlə dözdü. Bu illər ərzində İlham Əliyev həm də "sapı özümüzdən" olan baltaların, radikal müxalifətin sayıqlamalarını da eşitdi. Bəzən ölkə xaricində və daxilində bir sıra neytral mövqeli insanların qınağına da tuş gəldi. Lakin xalq öz prezidentinə, öz Ali Baş Komandanına inanırdı və əmin idi ki, Prezident hər şeyinəyi, necə və nə vaxt eləməyi hamıdan yaxşı bili və həm də problemin həlli üçün ciddi işlər görür. Heç kəsin belə təsəvvür etmədiyi bir hazırlıq işləri. Bu hazırlıq proqramın detalları təkcə bir şəxsə - Ali Baş Komandan İlham Əliyevə məlum imiş.

Ümumilli liderimiz Heydər Əliyev deyirdi: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". İlham Əliyev də hər zaman deyirdi: "İqtisadi güc ilk növbədə ona görə lazımdır ki, ölkə daha da qüdrətli olsun, öz maraqların təmin etsin və insanlar daha da yaxşı yaşasın". Məhz elə bu məqsədlə də prezident kimi fəaliyyətə başladığı ilk günlərdən, 2003-cü ilin 24 noyabrında sonralar Azərbaycanın sosial iqtisadi inkişafında müstəsna əhəmiyyət kəsb edən tarixi fərmanını - "Azərbaycanda sosial-iqtisadi inkişafın sürətləndirilməsi haqqında" fərmanını imzalamışdı. Ümumiyyətlə cənab İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə 200-dən artıq proqram xarakterli sənəd, o cümlədən 12 konsepsiya, 12 milli strategiya, 12 strateji yol xəritəsi, 94 dövlət proqramı, 10 Milli Fəaliyyət Planı, 21 tədbirlər planı, 21 tədbirlər proqramı, 17 milli plan və proqramlar qəbul edilmiş və bu sənədlərlə müəyyən edilmiş vəzifələr uğurla icra edilərək hamısı Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, onun iqtisadi qüdrətinin güclənməsinə bir sözlə Qarabağ probleminin həlli üçün zəmin hazırlamasına xidmət edir. Sənayenin şaxələndirilməsi, müasir sənaye sahələrinin yaradılması Azərbaycanın bu günkü taleyi üçün müstəsna əhəmiyyət kəsb edən, bir zamanlar çox adamların, siyasətçilərin dodaq büzdüyü süni peyklərin orbitə buraxılması xüsusilə yer səthinin müşahidə edən "Azərspace" və "Azersky" peyklərinin orbitdə dövrə vurması Qarabağ probleminin həllində nə qədər müstəsna əhəmiyyət kəsb etdiyi indi hər kəsə məlumdur.

Azərbaycan cəmiyyətini qələbəyə kökləmək, onlara qələbə ruhunu aşılamaq, qələbə vərdişi yaratmaq cənab İlham Əliyevin və ölkənin birinci xanımı, birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın daxili siyasətinin tərkib hissəsi olmuşdur. Avropanın "Eurovision" musiqi yarışmasında, I Avropa oyunlarında, İslam Həmrəylik oyunlarında və digər bu kimi yarış və müsabiqələrdə Azərbaycanın qalibiyyəti probleminin həllinə istiqamətlənmiş mühüm strateji tədbirlər idi.

Ölkənin beynəlxalq nüfuzunun artırılmasının Qarabağ probleminin həllində mühüm amil olduğunu nəzərə alan İlham Əliyev bu istiqamətdə misli görünməyən addımlar atdı: 2011- ci ildə Qoşulmama Hərəkatına üzv olanda çoxları burnunun ucundan uzağı görə bilmədiyi halda (Yəni bu Azərbaycana nə verəcək?) Cənab Prezidentə istehza ilə baxırdılar. Lakin heç bir il keçməmiş, müstəqilliyinin 20 ilini yaşayan gənc respublikanın BMT TŞ-nin qeyri daimi üzvü seçilməsində bu Hərəkatın üzvləri və daha 35 ölkə Azərbaycana səs verəndə opponentlərimiz başa düşdülər ki, nə üçün İlham Əliyev QH-na üzv olmaq üçün müraciət edib. Bu gün Azərbaycan BMT-dən sonra dünyanın ən böyük ikinci beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etməsi Azərbaycanın beynəlxalq nüfuzunun parlaq nümayişidir.

Yaxın qonşularla mehriban qonşuluq siyasətinin aparılması, dünyanın aparıcı dövlətləri ilə balanslaşdırılmış, qarşılıqlı hörmət və bərabər tərəfli münasibətlərinin qurulması dünyanın aparıcı beynəlxalq təşkilatlarına üzv olan ölkələr ilə həm birliklər səviyyəsində, həm də ikitərəfli səviyyədə yüksək səviyyəli əməkdaşlıq, ən yaxın qonşularımız olan - Rusiya, İran, Türkiyə və Gürcüstan ilə 3 tərəfli formatda yüksək səviyyəli münasibətlərin qurulması, qardaş Türkiyə ilə münasibətlərin dərinləşməsi, beynəlxalq və regional transimilli layihələr olan, - Bakı-Tibilisi-Ceyhan əsas ixrac boru kəməri, Cənub Qaz Dəhlizi, Bakı - Tbilisi - Qars Dəmir yol xəttinin çəkilişi, Şərq - Qərb və Şimal - Cənub nəqliyyat dəhlizləri, Azərbaycan regionun mühüm nəqliyyat və logistik mərkəzə çevrilməsi Azərbaycanın beynəlxalq nüfuzunu artırmış, onu dünyaya regionun aparıcı dövləti, etibarlı tərəfdaş, qüdrətli dövlət kimi təqdim edir. Azərbaycan bu gün uğurla Avropanın və regionun enerji təhlükəsizliyində uğurla iştirakı Qarabağ probleminin həlli üçün strateji əhəmiyyət kəsb edir.

*Ardı Səh. 13*

# Qələbəyə aparan yol

Əvvəli Səh. 12

Bütün bunlara dövlət başçısı cənab İlham Əliyevin uzaqgörənliyi, strateji düşünmə, məqsədyönlü, davamlı yorulmaz və gərgin fəaliyyəti sayəsində nail olunmuş və hamsı ölkənin bir nömrəli probleminin - Qarabağ probleminin həllinə yönəlmişdir. Cənab Prezident İlham Əliyev dəfələrlə Azərbaycan tərəfindən Ermənistanı təcrid siyasətini bütün dünya ictimaiyyətinə bəyan etmişdir. Ermənistan məhz cənab İlham Əliyevin təcrid siyasəti nəticəsində regionun bütün layihələrindən kənarda qalmışdır, Azərbaycan razılığı olmadan Ermənistan heç bir regional layihəyə cəlb edilə bilməz və bu siyasət Qarabağ probleminin Azərbaycan şərtlərinə uyğun həlli tapılmayınca davam edəcəkdir. Bütün bunların nəticəsində Ermənistan kasıb, səfil, dilənçi bir ölkəyə çevrilmişdir.







Ordu quruculuğu hər zaman ölkə prezidenti cənab İlham Əliyevin dövlət siyasətinin bir nömrəli məsələsi olmuşdur. Ölkənin bir nömrəli probleminin həlli üçün Azərbaycan güclü orduya malik olmalıdır. "Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir. O cümlədən Azərbaycan üçün, xüsusilə nəzərə alsaq ki, Azərbaycan müharibə şəraitində yaşayır, orduya diqqət yüksək səviyyədə olmalıdır". Bu gün Azərbaycanda əsası ümumilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və Azərbycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən yeni şəraitə uyğun, müasir hərb elminin tələblərinə cavab verən, güclü ordu qurulmuşdur... Bu ordu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Arsenalında yüksək dəqiqlikli ən müasir silahlara, yüksək texnologiyaların tələblərinə cavab verən, mühəndis texnikin qurğulara malik Azərbaycan Ordusu həm də bu silahları taktiki döyüş təlimlərində sınaqdan keçirmiş, onların idarə edilməsinə yiyələnmiş peşəkar zabit korpusuna, dünyanın ən qabaqcıl hərbi məktəblərində ordularında müasir hərb elminin sirlərinə yiyələnmiş hərbi elitaya malikdir. Cənab Ali Baş Komandan İlham Əliyevin dediyi kimi - bu gün "Azərbaycan ordusu nəinki bölgədə həm hərbi potensialına, həm döyüş qabiliyyətinə, həm də təhcizata görə dünya miqyasında güclü ordular sırasındadır".

İndi Cənab Ali Baş Komandanın bu kəlamlarını Azərbaycan Ordusu döyüş meydanında qazandığı möhtəşəm qələbələrlə sübut edir. Xalqımızı qələbəyə aparan yolda cənab prezidentimiz İlham Əliyevin son tədbirlərini qeyd etməmək mümkün deyil. Son illər ölkədə keçirilən prezident və parlament seçkilərinin irəli çəkilməsi, idarəetmə sahəsində aparılan struktur dəyişiklikləri, hakimiyyətin bütün vəsilələrində aparılan kadr islahatları, kadrların seçilib yerləşdirilməsində keyfiyyət amili, müxalifət düşərgəsi ilə siyasi dialoqun qurulması, korrupsiyaya qarşı mübarizə sahəsində aparılan instutisional və inzibati tədbirlər, ölkənin idarə edilməsində əsaslı dəyişikliklərin aparılmasına yönəlmiş və dəqiq hesablanmış çox ciddi tədbirlərdir və bütün bu tədbirlər həm də xalqda iqtidar birliyinin daha da möhkəm və monolit şəkildə birləşməsinə yönəlmişdir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev prezidentlik fəaliyyətinin bütün dövrlərində onun daxili siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bəyan etmişdir. Son 17 ildə ölkədə əhalinin sosial rifah halının yaxşılaşdırılmasında misilsiz işlər görülmüşdür. Ölkədə sarsılmaz xalq-iqtidar birliyi hökm sürür. Xalqla iqtidarın birliyi Azərbaycan cəmiyyətinin barometridir. Bu ilin iyul ayında Tovuz rayonu ərazisindəki dövlət sərhəddində baş vermiş növbəti erməni təxribatının qarşısı qətiyyətlə alındıqdan sonra iyul ayının 14-dən 15-nə keçən gecə on minlərlə insanın Cənab Ali Baş Komandan İlham Əliyevə, Azərbaycan ordusuna dəstək nümayişi xalq-ordu və Ali Baş Komandan Birliyinin parlaq nümayişi idi.

Ayrı-ayrı siyasətçilər, sadə insanlar, müxalifət nümayəndələri problemin hərb yolu ilə həlli barədə təkliflərini səsləndirəndə cənab İlham Əliyev deyirdi: "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm".

Cənab İlham Əliyev sülh danışıqlarına sadiq qalaraq 17 il bütün kaprizlərə, yalanlara, riyakarlıqlara səbrlə, təmkinlə dözdü. Hətta alçaq, yaramaz Paşinyan bütün Azərbaycanlılar üçün müqəddəs sayılan Şuşada qondarma prezidentin inaqurasiya mərasimini keçirəndə, Azərbaycan xalqının milli heysiyyat hissini təhqir edərək Cıdır Düzündə yallı gedəndə də, Şuşanı qondarma respublikanın paytaxtı etmək fikrini açıqlayanda, hər il 8 May Şuşanın işğal gününü, Şuşanın azadlıq günü kimi qeyd edəndə də, danışıqların formatını dəyişdirəndə də, yeni ərazilər işğal etmək xülyası ilə Tovuzda təxribat törədən də səbrlə, təmkinlə dözdü. İtkilər verməmək xatirinə erməni kaprizlərinin sonunu gözlədi. Lakin bu dözümün bir dözümsüzlük həddi də var axı! Cənab Prezident İlham Əliyev bu il senytabr ayının 21-də BMT-nin 75 illiyinə həsr olunmuş yüksək səviyyəli iclasında bütün dünya ictimaiyyətinə bir daha bəyan etdi: "Ermənistanın Baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur. Onun "Qarabağ Ermənistandır." bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. Ermənistanın Baş Naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşlardan ibarət könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Ermənistan müdafiə naziri Azərbaycanı "yeni ərazilər uğrunda yeni müharibə" bəyənatları ilə hədələyir. Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edirik.Təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür".

Lakin qulağı kar, gözü kor oldu beynəlxalq ictimaiyyətin. Sentyabr ayının 27-də növbəti erməni təxribatının qarşısını almaq məqsədilə Azərbaycan ordusu bütün cəbhəyə boyu əks hücuma keçdi... Azərbaycan dövlətçilik və hərb tarixində öz adını tarixə şərəflə yazmış dövlət başçılarımız və sərkərdələrimiz çox olmuşdur. Lakin onu da təəssüflə qeyd etmək lazımdır ki, tariximizin son yüzilliklari torpaqlarımızın itirilməsi ilə müşayət olunmuşdur...

...İndiyədək Azərbaycan ordusunun 1993-cü ilin dekabrından 1994-cü ilin 6-sı yanvarınadək davam etmiş Horadiz əməliyyaından və 2016-cı ilin "dörd günlük"Aprel döyüşlərində misilsiz qəhrəmanlıqlarından çox deyilib, çox yazılıb. Ancaq nə qədər desək də, yazsaq da yenə azdır. Ümummilli liderimiz Heydər Əliyevin və Prezidentimiz İlham Əliyevin misilsiz sərkərdəlik məharəti, cəsarəti və qətiyyəti nəticəsində bu döyüşlərdə 30 min hektardan çox torpaqlarımız Füzuli rayonunun 20, Cəbrayıl rayonunun 1 kəndi və Horadiz qəsəbəsi düşmən tapdağından azad edildi....

Biz indi böyük qələbə ərəfəsindəyik. Əminəm ki, Şuşada üç rəngli bayrağımızı qaldırdıqdan sonra qələbələrimizin səlnaməsini yazarkən hökmən bu qələbələrin başlanğıcı olan "Horadiz əməliyyatı" və "Aprel döyüşləri" dönədönə xatırlanacaqdır...

İndi isə Azərbaycan Ordusu Ali Baş Komandan cənab İlham Əliyev tarix yazır. Azərbaycan Ordusunun misilsiz rəşadətli və igidliyi nəticəsində 30 il əsarətdə olan Dağlıq Qarabağ və onun ətrafı işğaldan azad edilir. Azərbaycan xalqının şərəf tarixi yazılır. Azərbaycan əsgəri bu tarixi misilsiz şücayəti, rəşadəti, igidliyi ilə qanı və canı ilə yazır, millətin milli qürur hissini özünə qaytarır.

Himnimizin 100 il bundan əvvəl yazılmış mətnində səslənən kimi Azərbaycan əsgəri, Azərbaycan gənci Vətən üçün, bayraq üçün, torpaq üçün can verməyə hazır, qan tökməyə qadir olduğunu qəhrəmanlıqla nümayiş etdirir.

Komandanı cənab Ali Baş Komandan İlham Əliyev şəxsən özü verir, döyüşü özü idarə edir, qələbə müjdəsini xaqla özü çatdırır. Prezident, Cənab Ali Baş Komandan İlham Əliyev dünyanın aparıcı dövlət başçıları ilə aprdığı danışıqları və dünyanın aparıcı KİVlərinə verdiyi müsahibələri ilə nəinki, onu sevənləri, bütöv Azərbaycan xalqını, hətta rəqiblərini və opponentlərini, onu sərt tənqid edənləri öz diplomatik gedişləri və sərkərdəlik bacarığı ilə heyran və mat qoyur. Qarabağ problemlərinin tarixi barədə gerçək məlumatları, bu barədə erməni uydurmalarını, problemin həllinə yönəlmiş cəhdlərin və danışıqların xronologiyasını, problemin həlli ilə əlaqədar BMT-Təhlükəsizlik Şurasının ATƏT-in və onun Minsk Qrupunun həmsədrlərinin, beynəlxalq ictimaiyyətin mövqeyini, uzun illər ərzində Ermənistan dövləti tərəfindən Azərbaycan üçün yaradılmış problemləri, Qarabağ probleminin və Ermənistanın istər regionda, istərsə də bütünlükdə dünyada sülh üçün nə qədər təhlükəli olduğunu aydın şəkildə,faktlarla izah edir, erməni yalanlarını, onların riyakarlıqlarını ikiüzlülüyünü, faşist mahiyyətini dünya ictimaiyyətini çatdıraraq erməni yalanlarını ifşa edir. Riyakar, satqın, ikiüzlü, xəyanətkar Ermənistan dövlətinin əsl mahiyyəti cənab İlham Əliyevin verdiyi müsahıbələr nəticəsində hətta onlara rəğbət göstərən dövlətlər tərəfindən anlaşıqlıqla qarşılanır.

Eyni zamanda Azərbaycan Dövlətinin gücünü,qüdrətini.,Azərbaycan Xalqının döyüş ruhunu, qələbə əzmini dünyaya təqdim edir. Ölkəmizdə Azərbaycan tarixinin heç vaxt görmədiyi misilsiz bir xalq-ordu və dövlət birliyi hökm sürməkdədir. Bu birlik qarşısında nəinki Ermənistan, erməni diasporu, hətta onların havadarları olan böyük dövlətlət aciz durumdadırlar, artıq Azərbaycanla razılaşmaq məcburiyyətindədirlər. Azərbaycan Vətən Müharibəsində böyük qələbənin astanasındadır. Ali Baş Komandan cənab İlham Əliyev və onun ordusu möhtəşəm tarix yazır. Bu tarix "Bir millət, iki dövlət" olan qardaş Türkiyə ilə,Türkiyə xalqı ilə və Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə, onların mənəvi və siyasi dəstəyi ilə yazılır.

Qələbən mübarək Azərbaycan! Qarabağ Azərabaycandır!

# Konüllü cəhənnəm yolçuluğu

***Feysbuk səhifəsində canlı yayım edərək, erməni xalqının "ağrılı kompromisə" belə hazır olması barədə deyən Ermənistan baş naziri Nikol Paşinyan daxili auditoriyada belə qınaq obyektinə çevrildi. Bu həm də ondan xəbər verdi ki, baş nazır olmasına baxmayaraq, başı, bir sözlə ağlı yoxdur. Yəni bu adam reallığı hələ də dərk edə bilmir və buna başqaları ilə yanaşı erməni cəmiyyəti özü də bir daha əmin oldu.***

"Azərbaycan hazırda Qarabağ məsələsinin həll olunmasını deyil, Qarabağın təslim olmağını istəyir", deyən bu başsız baş nazir Azərbaycanın nə istədiyini bilmir, yoxsa, elə zənn edir ki, nə istədiyini Azərbaycana onun xatırlatmasına lüzum var? Əlbəttə ki, Azərbaycan nə istədiyini özü də yaxşı bilir və dünyaya da bəyan edib ki, hamı bilsin. Bunu elə demək olar ki, hamı da yaxşı bilir. Bilir ki, Azərbaycan işğal altında saxlanılan öz torpaqlarını, öz haqqını, ədalətin bərpasını istəyir və buna da öz qüdrəti, öz Ali Baş Komandanının siyasi iradəsi, uzaqgörənliyi, bacarığı hesabına da nail olur.



Əslində, erməni baş nazirinin özünə xatırladılmalı olan məsələlər, məqamlar var ki, görünür, bunu da dərk etmir. Əks halda bu şəkildə hər zamankı kimi məntiqsiz çıxış etməzdi. Dərk edərdi ki, Azərbaycan Ermənistanda müharibə aparmır ki, "erməni xalqı" da kapitulyasiyaya hazır olub-olmadığını müzakirə mövzusu olsun. Müzakirə mövzusu Azərbaycana məxsus olan Dağlıq Qarabağ torpaqlarından erməni işğalçılarının qeyd-şərtsiz çıxarılmasıdır və bunu bizimlə yanaşı, BMT qətnamələri də tələb edir.

Hər çıxışında məğlubiyyət ab-havası duyulan Nikolun bu vəziyyətdə də məsələyə sağlam yanaşmaması, qır saqqız olub əl çəkməməsi göz qabağındadır. Bu qədər itgilərin, istər canlı qüvvə, istərsə də hərbi texnika, silah-sursat itgilərinin fonunda belə hələ də müharibəni davam etdirənə qır-saqqız deməkdə güman edirik ki, yanlışlığa yol vermirik. Əksinə, reallıq belə sözlərlə daha aydın şəkildə ifadə olunur. Bu adam görünür hələ də işğalçılıq iddialarından geri durmaq, ordusunu Azərbaycanın dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən tanınan ərazilərindən çıxarmaq, BMT qətnamələrini icra etmək niyyətində deyil. "Ağrılı kompomis"lərdən danışır, məğlubiyyətini etiraf edir, amma yenə də ordu toplamaq, səfərbərlik çağırışlarından da əl çəkmir. Bununla da Azərbaycan torpaqlarından əl çəkməyəcəyini nümayiş etdirir.

Hər çıxışında məlumatsızlığı, savadsız danışığı, rabitəsiz nitqi ilə yanaşı anormal davranışları ilə diqqəti cəlb edən Paşinyan bu dəfə də öz çirkin niyyətindən, işğalçılıq siyasətindən əl çəkməyəcəyini ortaya qoydu. Qırğına verdiyi hədsiz sayda hərbçilərə görə vicdan əzabı, əgər onda belə bir hiss varsa, çəkmək əvəzinə son vətəndaşına qədər səfərbərliyə çağırması onun faşist siması ilə yanaşı, qaniçənliyini də təsdiqləyir. Yayılan videolardan bəlli olur ki, Ermənistan ordusunda tam xaos hökm sürür, ordu təminatı yoxdur, əsgərləri ayaqqabısız, paltarsız, qidasız, baxımsız və acınacaqlı vəziyyətdədir. Onun hərbçi deyə döyüşə göndərdikləri avtomatın hansı şəraitdə necə işləməsindən belə xəbərsizdir. Ordunu ən vacib resurslarla təmin etmədən, heç bir təlim keçmədən cəbhəyə əsgəri yollayan erməni baş nazir onun ölümünə fərman verir. İndi erməni vətəndaşı əsgər deyil, "canlı sədd" olaraq göndərilir. İnsanların, özü də öz vətəndaşlarının bu qədər canına, qanına susayandan ölkə başçısı, rəhbər ola bilərmi? Əsla olmaz.

Əvvəla, bu vaxta qədər az-çox hərbi hissə, silah-sursat, hərbi təlim görmüş erməni əsgərləri rəşadətli Azərbaycan Ordusunun qarşısında dayana bilmədisə, deməli, Nikolun bundan sonra heç nəyə ümidi olmamalıdır. Daha dəqiq desək, hərbi hissədə silahla davranmaq, hərbi əmrlər, hərbi texnika və başqa məsələlərdən məlumatlı olan əsgərləri onun işğalçılıq siyasətinin davamı kimi çirkin əməllərini artıq reallaşdıra bilmirsə, heç şübhəsiz ki, yoldan tutulub gətirilmiş adi, sıravi, hərbdən məlumatsız vətəndaşlarla buna heç nail ola bilməz. Bir sözlə, bundan sonra vətəndaşlarını daha böyük qırğınlara sürükləyir erməni baş nazir.

İllərdir, hətta onillərdir ki, ermənilərin "soyqırım" nağıllarından bütün dünyanın bezdiyi kimi öz vətəndaşları da cana doyub. Nə qədər yalançı nağılar danışmaq olar? Özü də əsassız, faktsız və arqumentsiz şəkildə. Digər tərəfədən, ermənilər yaxşı-yaxşı baxsınlar görək, onların qırılmasına səbəb olan başqalarıdır, yoxsa özlər? Əlbəttə ki, özlər. Məsələn, "Daşnaqsütyun" deyilən bir partiyanın ,çürük olan "dənizdən dənizə" ideyası ilə "Böyük Ermənistan" xülyası bu zamana qədər başqaları ilə yanaşı, nə qədər erməni əsillilərin canını alıb? Bir tayfa kimi mövcudluğu, ortaya çıxdığı dövrdən bu vaxta qədər dənizin üzünü də görməyən erməni toplumu məskunlaşmaları üçün verilmiş torpaqlarda hansı "böyük" axtarır və bu xəstə təxəyyüllərinə, anormal ideyalarına görə nə qədər qurbanlar verməli olublar?

Olublar deyə keçmiş zamanda danışmaq da düz olmazdı, çünki, bunlar hələ də xəstə təxəyyüllərinə qul olub onu davam etdirir, şişirdir, hələ də qurbanlar verməkdə, qırğınlara sürüklənməkdə davam edirlər. İndi də "növbəti erməni soyqırımı" deyə haray-həşir qoparanlar özləri soyqırımla məşğuldurlar və özləri də elə vətəndaşlarını qırğına sürükləyirlər. Ermənilərin soyqırımı varsa da onu Paşinyan özü və onun əziz xələfləri edib və etməkdə də davam edir. Soruşmaq ayıb olmasın, məktəbli uşaqların silaha sarılmasını onlara rəva bilən ölkə başçısı utanmadan soyqırım sözünü də ilə gətirir. Axı on-on beş yaşları arasında olan yeniyetmələr silahın nə olduğunu bilməməsi bir yana, bu silahlara gücü də çatmır. Daşıya da bilmirlər yeniyetmələr silahları. Özü ilə birgə silahı da hərləyə bilmirsə, bu zaman yeniyetmələr hədəfə çevrilmirmi? Nəticə etibarı ilə bu nə deməkdir? Azyaşlıları, qocaları, hətta qadınları, qızları, heç bir təcrübə görməyən gəncləri döyüşə göndərməyin soyqırımdan başqa nə adı ola bilər? Bu soyqırımı Nikol Paşinyan özü törətmirmi öz xalqına qarşı. Axı hərbi hədəfin yaşı olmaz və hərbi əməliyyatların qaydalarına görə hədəfin məhv edilməsi əmri birmənalı şəkildə icra edilməlidir. Nəticə isə o deməkdir ki, Nikolun məcburi şəkildə ordu sıralarına, döyüşə cəlb etdiyi yeniyetmələr intensiv ölüm halları ilə qarşılaşmalı olurlar. Ermənistanın baş naziri erməni xalqını açıq-aşkar ölümə, məhvə sürükləyir.

Bəllidir ki, Nikol Paşinyan da öz xələfləri kimi çürük əqidə, axmaq, gülünc ideya uğrunda, özünün də etiraf etdiyi kimi, ölməyə, bununla da cəhənnəmə vasil olmağa hazırdır. Təbii ki, öz vətəni deyil, özgə torpaqları uğrunda ölüm nə şəhidlikdir, nə də qoçaqlıq və bu sadəcə məhv olmaqdır. Həm bu dünyada məhv olmaqdır, həm də çirkin niyyətlərə, törədilən qətllərə, baiskarı olduqları qanlara görə cəhənnəm yolçuluğudur. Görünür, Nikol bu yolçuluğu göz qırpmadan qəbul edir ki, bu da anlaşılandır. Yəni, bu zamana qədərki şeytan, iblis xislətlərinin, bəd əməllərinin fonunda cəhənnəmdən başqa guman yerlərinin olmadığını anlayanların ümidsizliyi də təbiidir. Normal təzahürdür. Bir sözlə bu adam könüllü cəhənnəm yolçusudur. "Ümidsiz şeytan olsun" deyimi də əbəs deyil.

İblis xislətlilərin tarixdə dəfələrlə şahidi olub dünya ictimaiyyəti. Məsələn, 1941-1945-ci illərdə faşizm ideologiyasına xidmət edən Hitler nə qədər insanın qətlinə baiskar olmuşdu. Njde kimi faşist olan birinə ölkə paytaxtında heykəl ucaldılması Nikol Paşinyanın bu faşistlərə tay olduğu anlamına gəlmirmi? Yeri gəlmişkən, Hitler 1945-ci ilin aprelində yeniyetmələri cəbhəyə yola saldığı kimi, faşizm ənənəsinə sadiq qalaraq Nikol Paşinyan da indi Ermənistanda yeniyetmələri döyüşə cəlb edir, onlara silah verib qırğına yollayır. "Cəhənnəmə gedən özünə yoldaş axtarar" zərb məsəli də var, amma bu yeniyetmələr axı hələ cəhənnəm yolçuluğunu arzulamırlar. Arzulayanlar da varsa, Nikol imkan versin ki, onlar onunla cəhənnəm yolçuluğuna heç olmasa könüllü şəkildə başlasınlar, məcburi yox.

***İnam Hacıyev***

## Təlxək baş nazirin qana susayan "cəngavər" Annası

"İşğalçı və terrorist ölkənin təlxək baş nazirinin özü kimi də təlxək həyat yoldaşı Anna Akopyan qadınlardan ibarət döyüş dəstəsi yaradır və təlimlərə başlayır. Bu isə Ermənistan ordusunda vəziyyətin nə dərəcədə acınacaqlı olması ilə yanaşı digər mətləblərdən də xəbər verir. Birincisi, ölkədəki vəziyyət o dərəcədə ağır, ordu da bir o qədər nəfəssiz və oksigensiz qalıb ki, Paşinyan arvadını bir neçə qadınla döyüş bölgəsinə göndərməyə məcbur olur. Aydın mənzərədir ki, erməni ordusu döyüşmək üçün nəinki kadr potensialından, bütövlükdə kişi baxımından əziyyət çəkir. Belə ki, ölkədə kişi yoxdur ki, qabağa dursun və səngərdə sinəsini sipət etsin. Axı həm də "Mənim olmayan torpaq üçün niyə də sinəmi sipər edim, həyatımı qurban verim?" sualını da rasional düşüncəli insan özü üçün sual edir. Müqayisəli şəkildə desək bu gün Azərbaycan əsgəri bilir ki, o konkret olaraq öz dədə-baba torpağı uğrunda döyüşür. Erməni əsgərində isə mücərrəd bir düşüncə var. O niyə və nəyin uğrunda döyüşdüyündən xəbərsizdir. Çünki bilir ki, vuruşduğu döyüş Paşinyanın, onun ailəsinin, hakimiyyətinin, havadarlarının öz şəxsi maraqlarına və ambisiyalarına xidmət edən, onun həyatını mənasız yerə ondan alan bir döyüşdür. Bu döyüş ona məxsus olmayan tarixi Azərbaycan torpağıdır! Elə buna görə də bu gün Ermənistan ordusunda əmrə tabe olmama, fərarilik halları durmadan artır". Bunu SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.

Ekspertin sözlərinə görə, aydın məsələdir ki, heç müaqayisəyə belə gəlməz: "Amma qeyd olunmalıdır ki, bu gün Azərbaycan qadının ən mükəmməl nümunəsi, siması və sanki Azərbaycan qadını kitabının üz qabığı olan Azərbaycanın Birinci xanımı - Mehriban Əliyeva hər bir Azərbaycan oğlunu, əsgərini öz balası sayır, xalqa hər müraciətində hər bir Azərbaycan əsgərinin həyatı və sağlamlığı üçün dua etdiyini, şəhid analarının acısını bir ana kimi bölüşdüyünü deyir və dünyaya sülh çağırışları edib, sülh toxumları səpirsə bu təlxək Akopyan isə belə yaramaz, şou xətrinə olan işlərlə məşğul olur. Tarix boyu, qadınlar sülh elçisi olmuşlar, qan tökülməsinin qarşısının alınması məqsədilə dünyaya sülhsevər mesajlar, çağırışlar etmişlər. Akopyan isə qadınları qan tökülməsinin və müharibəyə sipər çəkməyə səsləməsinin əvəzinə daha da aqressiv ab-hava gətirir öz cəmiyyətinə və bütövlükdə bəşəriyyətə. Əgər illər sonra tarix kitablarında qadın məğrurluğundan danışılacaqsa Akopyan tarixin tozlu səhifələri arasında itib-batacaq... Döyüşlərdə ölmüş erməni əsgər analarında bu kimi hərəkətlərin nə qədər qıcıq, ikrah və nifrət doğurduğu da aydın məsələdir. Bundan əvvəl də Akopyan təlimlərə qatılmışdı. Ancaq Tovuz döyüşlərinə Azərbaycan qadınlarını sülhə səsləyən bu "qadın" bu gün əlinə silah alıb "vətən müdafiəsi"nə qalxıb. "Qadınlar sülh uğrunda" təşkilatının müəllifi Akopyanı sülhdən uzaq düşməyə vadar edən səbəb isə heç şübhəsiz ki, hal-hazırda Erməni ordusunun əziyyət çəkdiyi acınacaqlı durumdur. Bu dövlətin nəinki hərbi-siyasi rəhbərliyi, eyni zamanda qadın ləyaqəti də cinayətkarlıqdan əziyyət çəkir. Bu məxluq əslində, qadın sözünə böyük bir ləkədir. Bu kimi hərəkətlər, əslində Paşinyanın ailəsinin və ailə dəyərlərinə yanaşmasının mahiyyətini də bütün çılpaqlığı ilə ortaya qoyur. Həm də axı, bu ailənin psixoloji vəziyyəti də normal deyil. Bir müddət əvvəl sosial şəbəkədə "Boş xəyallarımız və ümidlərimiz puç oldu" deyə status yazan Paşinyanın qızının bu hərəkəti də ölkə ictimaiyyətində kifayət qədər narazılıq, eyni zamanda ümidsizlik toxumları səpmişdi ki, birinci ailəyə münasibətin son dərəcə arzuolunmaz olduğunu daha qabarıq şəkildə gözlər önünə sərmişdi. Bu açıqlama həm də onun atası Paşinyanın qorxu və xof içində olduğundan da xəbər verirdi".



Politoloq qeyd edib ki, "Balıq başdan iy verər" deyimi burada tam yerinə düşür: "Ölkənin birinci ailəsi cəmiyyətdə qızının simasında belə pessimist, həyat yoldaşının simasında isə belə ikrah doğuran bir imic formalaşdırıbsa, ölkədə hansı döyüş ruhu, motivasiyası olsun? Əlbəttə ki, heç bir! Adı siqaret qaçaqmalçılığında, digər qeyri-qanuni əməllərdə hallanan, qardaşı haqqında yayılan xəbərlərdən utanmayan Akopyan belə hallarla özünü göstərir. Siyasi elita milli maraqları kənara qoyaraq, artıq məhv olduqlarını da anlayaraq bu kimi şou xarakterli əməllərə əl atır. Sülhə, qan tökülməsinə zərbə vuran bu hərəkətlər isə hər kəsdə hiddət doğurur. Bu baxımdan da artıq erməni cəmiyyəti də ümidsizlik içindədir. Orduda da kütləvi şəkildə ölümlər var. Paşinyan isə medianı nə qədər məhdudlaşdırsa da erməni cəmiyyəti sosial şəbəkələr vasitəsilə real durumdan xəbərdardırlar. Odur ki, Erməni cəmiyyəti nə qədər gec deyil anlamalıdır ki, təlxək Paşinyanın və onun ailəsinin məntiqsiz addımları nəticəsində uçuruma getməmək üçün təslim olmalıdırlar".

Ş.Həsənova vurğulayıb ki, Azərbaycan Prezidenti bu gün humanist çıxışlarında erməni xalqına, analarına səslənir ki, "təslim olun, sizin olmayan torpaq uğrunda döyüşmək üçün övladlarınızı qurban etməyin, boş yerə qan tökülməsin." "Buna baxmayaraq, Paşinyanın hakimiyyətinin və ailəsinin nə qədər şovinist və şəxsi ambisiyaları gözlərindən qan pərdəsi asıb ki, bu kimi oyunlara əl atırlar. Son ümidlərini neo-faşist ideologiyasına, terroristlərə bağlayan ölkədən başqa bir şey gözləmək də düzgün olmazdı. Erməni hakimiyyəti, birinci ailəsi qana susayıb. Gülməli olsa da Anna bildirib ki, təlimlər bir neçə gün sonra bitəcək və qadınlardan ibarət dəstə sərhədləri qorumaq üçün yola çıxacaq. Bu "yazıq" qadın başa düşmür ki, onlar ha eləyib təlimi qurtarana kimi Azərbaycanın mərd oğlu Ali Baş Komandanımız başda olmaqla bütün mərd əsgərlərimiz üçrəngli, şanlı Azərbaycan bayrağını Şuşaya sancacaq!".

***Aysel Məmmədova***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# "Qarabağın taleyi döyüş meydanında həll olunur"

*İqor Korotçenko: "Prezident İlham Əliyevin dilə gətirdiyi Azərbaycanın mövqeyi son dərəcə sadədir- Ermənistan qoşunları işğal edilən ərazilərdən çıxmalıdır"*

(2-ci hissə)

**Rusiya Müdafiə Nazirliyi yanında İctimai Şuranın rəhbəri, "Milli Müdafiə" nəşrinin baş redaktoru, nüfuzlu hərbi ekspert İqor Korotçenko "Pravda"nın internet versiyasının baş redaktoru İnna Novikovaya Qarabağda hadisələrin mümkün inkişafı, Rusiyanın milli maraqları baxımından vəziyyətin necə olduğu barədə danışıb. Həmin müsahibənin 2-ci hissəsini oxucularımıza təqdim edirik.**

*Əvvəli burada*
https://sia.az/az/news/politics/834283.html

***- İqor, tərəflərdən heç biri, torpaqların bir qarışını belə verməyə meylli deyil. Buna görə müharibə bəlkə də uzun müddət davam edəcək və çox qanlı olacaqdır. Necə düşünürsünüz?***

- Qarabağ münaqişəsinin fonuna nəzər salaq. Keçən əsrin əvvəlində Rusiyada vətəndaş müharibəsi başa çatdıqdan sonra ölkəmizdə azərbaycanlılar və ermənilər vahid bir dövlətdə- Sovet Sosialist Respublikaları İttifaqında yaşamağa davam etdilər. SSRİ-nin millətlərarası siyasəti, həqiqətən, beynəlmiləlçilik və xalqların dostluğunu təmin etmək fikrindən irəli gəlirdi.

Bəlkə də indi buna gülə bilərsən, amma şəxsən Sovet təhsil sisteminin məhsulu olaraq mən mütləq beynəlmiləlçi bir insanam, mənim üçün millі zəmində pis insanlar yoxdur, hamı ilə son dərəcə normal davranıram, onların baxışlarına hörmət və münasibət bəsləyirəm. Ermənilər və azərbaycanlılar SSRİ dövründə normal və hətta dostcasına yaşayırdılar. Praktik olaraq heç bir qarşıdurma yox idi və ortaya çıxanda da, sərt və çox tez söndürülürdülər.

Azərbaycan SSR ərazisində böyük bir erməni təbəqəsi var idi, SSRİ şəraitində real olduğu qədər iqtisadiyyat sistemində, partiya orqanlarında, iqtisadi elitada görkəmli bir mövqe tutdular. Ümumiyyətlə, Bakı beynəlxalq, çoxmillətli bir şəhər idi, orada nəhəng bir erməni icması var idi.

Eynilə, azərbaycanlılar Ermənistan SSR ərazisindəki icmaları və kəndləri ilə kompakt şəkildə yaxşı, mehriban və problemsiz yaşayırdılar. Azərbaycan SSR-in inzibati cəhətdən bir hissəsi olan DQMV ərazisində erməni və azərbaycanlı icmaları təxminən bərabər payda yaşayırdılar. 80-ci illərin ortalarına qədər, Qorbaçov hakimiyyətə gələnə qədər aralarında heç bir problem yox idi. Qorbaçov Sovet İttifaqının siyasi sistemini bədnam yenidənqurması, adekvat davrana bilməməsi nəticəsində balanssızlaşdırdı.

Nəticədə, Qorbaçovun zəifliyini, yeni düşüncə çağırışlarını hiss edərək, erməni sovet ziyalılarının bir hissəsi xaricdəki nüfuzlu erməni diasporunun dəstəyi ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi məsələsini qaldırmağa başladı. Bütün bu ilk dağıdıcı hadisələr məhz burada baş verdi və bu münaqişənin partlayıcısı və başqalarına nümunə oldu. Nəticə etibarı ilə bütün bunlar Sovet İttifaqının dağılmasına səbəb oldu. Bal-



tiklərin separatizmlə bağlı bəyanatlarından xeyli əvvəl, Vilnüsdə, Riqada, Qazaxıstanda və s.-də baş verən bütün hadisələrdən əvvəl, bütün bunların başlanması erməni sovet ziyalılarının və erməni diasporunun xarici mərkəzlərinin təhriki ilə Dağlıq Qarabağda olmuşdu. İnsanlar deməyə başladı: imza ataq, tələb edək ...

Və sonra proses başladı. Bütün bunlar bu ərazidə vəziyyətin qeyr-sabitləşməsinə gətirib çıxardı və SSRİ-nin bir çox yerlərində separatçılıq hissləri gücləndi, millətlərarası birlik məhv edildi. "Qarabağ" Hərəkatı fəaliyyətə başlamasaydı, Qarabağın Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi məsələsi olmazdı, heç bir şey olmazdı. Bəlkə də, yenə də normal və sakit yaşayardılar. Ancaq sonra idarəolunmaz hadisələr başladı: azərbaycanlıların Ermənistandan qovulması, Sumqayıtda və Bakıda "poqrom"lar, Qarabağdakı və ətrafındakı hərbi əməliyyatlar ...

Əvvəlcə Qorbaçov nəzarəti itirdi, sonra ordunu cəlb elədi, ancaq hər iki tərəfin acıları və nifrəti artıq o hədlərə çatmışdı ki, daxili qoşunlarımız bu iki atəş arasında qaldı. Əvvəllər ermənilər və azərbaycanlılar bir-birləri ilə münasibətləri aydınlaşdırırdısa, indi ordu və daxili qoşunlara, hər biri öz tərəflərindən hücum etməyə başladılar. Və müharibə sonrakı bütün kabuslarla başladı.

***- İqor, Qarabağdakı millətlərarası qarşıdurma Sovet dövründə başladı. Sonra nə oldu?***

- Sovet İttifaqının dağılmasından sonra Rusiya oranı tərk edir və geniş miqyaslı müharibə başlayır, Ermənistandan azərbaycanlıların tamamilə qovulduğu, Dağlıq Qarabağa müdaxilə etməklə hərbi əməliyyatlar başlayır. Elçibəyin rəhbərlik etdiyi Azərbaycan Xalq Cəbhəsi o dövrdə Bakıda hökm sürürdü. Təbii ki, Qarabağı kiməsə vermək fikrində deyildilər. Ancaq ermənilər Rusiyanın müdafiə naziri Pavel Qraçovun müəyyən dəstəyi ilə Ermənistan ərazisində yerləşmiş Sovet hərbi birləşmələrinin arsenallarından silah almağa müvəffəq oldular. Hərbi əməliyyatlar zamanı yalnız Dağlıq Qarabağı deyil, onun ətrafındakı 7 rayonu da işğal etdilər. Döyüşlər 1994-cü ilə qədər davam etdi, 1994-cü ildə barışıq imzalandı və status-kvo əldə edildi.

Bu vəziyyət əslində 2020-ci ilə qədər dəyişməz olaraq mövcud idi, yalnız 2016-cı ilin aprel ayında Azərbaycan və Ermənistan arasında müharibə zamanı Azərbaycan əvvəllər Ermənistanın ələ keçirdiyi bir sıra kiçik ərazilər üzərində nəzarəti bərpa edə bilmişdi. Sonra yenidən danışıqlar oldu, beynəlxalq vasitəçilər tərəfindən təzyiqlər edildi, status-kvo təsdiqləndi. Ancaq indi- bu gün yenə müharibədir. Bu, ilk növbədə, razılaşmalar yerinə yetirilmədiyi üçün mümkün oldu. Kazan düsturunda Dağlıq Qarabağın statusunun sonraya təxirə salınması və əvvəlcə Ermənistan ordusunun 5 rayonu, daha sonra 2 rayonu azad edəcəyi bildirilirdi. Bu, Paşinyan tərəfindən həyata keçirilmədi.

İndi kimin əvvəlcə atəş açdığını söyləmək mənasızdır, müharibə gedir və təəssüf ki, indi hər şey döyüş meydanında həll olunur. Əlbətdə, eyni zamanda, Rusiya da başa düşür ki, tərəflərin hərbi imkanlarının həddi gec-tez tükənəcək, kimsə qazanacaq, kimsə məğlub olacaq. Əslində, o zaman danışıqların mümkün olacağı şərtlər olacaqdır. Eyni zamanda, Prezident İlham Əliyevin dilə gətirdiyi Azərbaycanın mövqeyi son dərəcə sadədir.

***- İqor, gözəl danışırsınız, amma bu, tamamilə qeyri-realdır. Siz özünüz azərbaycanlıların ermənilərə qarşı nə qədər nifrət etdiyini söylədiniz. Birinin orada qalmasına icazə verilərsə, qarşıdurma hər zaman bərpa oluna bilər...***

- Həm ermənilər, həm də azərbaycanlılar həqiqətən bir razılığa gəlmək istəmirlər və qalib gəlmək üçün bir fürsət və ümid olduğu müddətdə mübarizəni davam etdirəcəklər. Eyni zamanda, danışıqların mümkünlüyü ilə bağlı açıqlamalar verildiyini, danışıqların aparıldığını və Rusiyanın vasitəçiliyi ilə ciddi mübahisələri varsa belə, tərəflərin hansısa bir şey barədə razılığa gəldiklərini müşahidə edirik. Ancaq bütövlükdə döyüşənlərin mövqeləri dəyişməyib. İlham Əliyevin əvvəlcə dediyi kimi, danışıqların nəticəsi Ermənistan qoşunlarının işğal edilən ərazilərdən çıxarılması üçün qanuni məcburi cədvəl olmalıdır.

Bu, hərbi əməliyyatların dayandırılması üçün bir şərtdir. Tərəflərin burada konsensus tapa bilməyəcəyini görürük, buna görə təəssüf ki, müharibə bir müddət sakitləşsə də, davam edəcəkdir. Buna görə də, bu, Moskvanın özünü birbaşa münaqişəyə cəlb etməmək üçün qüsursuz oynamalı olduğu çox çətin bir oyundur. Bağışlayın, kiminsə ambisiyaları üçün rus əsgərlərinin həyatını və pul ödəməməliyik. Bu mənim üçün dəmir-beton prinsipdir. Bu səbəbdən Qarabağda hərbi müdaxiləmizə ehtiyac yoxdur. Putin isə bunun olmayacağını söylədi. Ancaq Ermənistana bir hücum olarsa, bütün öhdəliklərimizi tam yerinə yetirəcəyik. Yenə də- hər şey öhdəliklərə uyğun və vəziyyətə görədir.

İndi isə Rusiyanın vəzifəsi siyasi və diplomatik yollarla tərəfləri danışıqlar masasına oturtmağa çalışmaqdır, bu da artıq görülmüşdür. Ancaq əslində, yalnız müharibə aparma potensialı tükəndikləri zaman danışıqlara oturacaqlar. O zaman Rusiyanın vasitəçilik səyləri daha da aktual və daha təsirli olacaqdır.

***- İqor, deyilir ki, Ermənistana bir hücum olarsa, Rusiya kömək edəcək, amma Qarabağ Azərbaycanın ərazisidir. Ancaq onsuz da hər iki tərəfdən düşmənin ərazisinə atəş edilirdi. Ermənistan KTMT-yə qoşulduqda, eyni düşməni var idi. Axı heç bir Avropa və ya Afrika ölkəsinin Ermənistana hücum edəcəyi düşünülmürdü. Buna görə də, Ermənistan rəhbərliyi və xalqı, göründüyü kimi, belə bir ifadəni ən azından xəyanət kimi qəbul etdilər- bəzi mücərrəd düşmənlərlə deyil, Azərbaycanla qarşıdurmada bizdən kömək gözlədilər. Əlbəttə ki, KTMT Nizamnaməsinə görə, dövlətin özü kömək istəməlidir.***

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

- Hər hansı bir iddiaları varsa, aşağıdakı ünvana müraciət edilməlidir: Rusiya Federasiyası, Moskva, Kreml, Prezident Vladimir Vladimiroviç Putin. Putin bir vəkildir; bu baxımdan qüsursuz formulalar qurur və hər şeyi izah edəcəkdir.

Ermənistana hücum olacağı təqdirdə, Ermənistana hərbi yardım mexanizmindən istifadə edəcəyik və əgər Ermənistan Dağlıq Qarabağda Azərbaycana qarşı döyüşürsə, orada müdaxilə etməyimizə icazə verən qanuni sənədlər yoxdur. Hər kəs problemi evdə axtarmalıdır. İndi Paşinyan dəfələrlə Putinə zəng edib. Bundan əvvəl Putin Robert Köçəryanın mühakimə olunmamasını istəmişdi. Paşinyan nə etdi?- yayınmağa davam etdi. Putin ona bir neçə dəfə müxtəlif kanallardan siqnallar göndərdi. Yenə özünü görməməzliyə vurdu.

Paşinyan KTMT-nin Baş katibi, general-polkovnik Xaçaturova qarşı cinayət işi qaldırmağa başlayanda hamı dedi ki, bu edilməməlidir, KTMT-nin nüfuzuna xələl gətirir, bütün bu təşkilata zərbə vurursan. Əvvəlcə müəyyən edilmiş qaydada geri çəkin və sonra işi açın. Paşinyan Moskvanın bu siqnallarına da məhəl qoymadı.

Rus işini boğmağa başladıqda, ona da siqnallar göndərdilər: bunu etmə- sıfır reaksiya. Sonra Rusiyapərəst siyasətçilərin təmizlənməsi başladı. "Çiçəklənən Ermənistan" Partiyasının lideri, "Vahid Rusiya" Partiyasının tərəfdaşı Qagik Tsarukyan həbs edildi və işi ondan alındı. Bir sıra rusiyapərəst siyasətçilər siyasi xəttin kənarına atıldı. Rus dilini məhdudlaşdırmağa başladılar, rus telekanalları qadağan edildi ...

Yaxşı, indi nə olub? - O zaman indi Putini deyil, Sorosu və ya Amerika səfirini axtarın. Rusiyanın buradakı siyasəti tamamilə aydındır: Paşinyanın ambisiyalarını rus əsgərlərinin həyatı ilə ödəməməliyik. Yumşaq desək, Paşinyan danışıqlar aparmaq iqtidarında deyilsə və əsas vəzifələrə təyin etdiyi Sorosun adamları kömək etsin.

***- Bu müharibənin nəticələri nədir?***

- Baş verə biləcək ən pis şey, tərəflərdən birinin itirdiyini başa düşdüyü zaman kəskinləşmədir. Hələlik, üstünlük Azərbaycanın tərəfindədir, buna görə bundan başlayacağıq. Vəziyyət Azərbaycanın xeyrinə inkişaf etməyə davam edərsə, onda qorxuram ki, Ermənistan Azərbaycandakı kritik infrastruktura zərbə vurmaq üçün ağır silahlardan istifadə edə bilər. Və bu vəziyyətdə Azərbaycan qaçılmaz olaraq cavab verəcək, üstəlik Türkiyə müdaxilə edəcək. Və hamısı budur- vəziyyət indikindən daha pis bir şəkil alacaqdır. Və sonra böyük ölçüdə gözlənilməz olan hadisələr olacaq. İndi sağlam düşüncəyə arxalanmaq əbəsdir.

Bəlkə də özünü qoruma instinkti birtəhər hər iki tərəfi həddindən artıq sərt qərarlardan uzaqlaşdıracaq. Ancaq hadisələr artıq baş verdi və çox təhlükəlidir. Ən əsası, vəziyyətin ani və kəskin bir şəkildə pisləşməsi üçün yüksək potensial var. Bu, baş verə biləcək ən pis şeydir.

***- Belə çıxır ki, bu müharibəni hələ dayandırmaq mümkün deyil?***

- Siyasi metodlar burada işləmir. Ermənistan artıq danışıqlara hazırdır. Ancaq Azərbaycan hərbi uğurlarını inkişaf etdirir. Ermənistan hərbi uğur qazansaydı, vəziyyət yeqin ki, başqa cür görünərdi. Bəs Paşinyanın danışmağa hazır olduğu nədir? Siyasi karyerasına son qoyacaq sənədləri imzalamaq istəmir. Sadəcə statuskvonu düzəltmək, döyüş əməliyyatlarını və tərəfləri yeni təmas xətlərində dayandırmaq istəyir, hamısı budur.

Azərbaycan 2 ölkəni dinləyə bilər: Rusiya və Türkiyə. Moskva ilə Ankara arasında bu vəziyyəti necə həll edəcəklərinə dair bir fikir birliyi olacaq. Eyni zamanda, Ermənistan Türkiyə vasitəçiliyi ehtimalı barədə eşitmək belə istəmir. Buna görə də, indi proses tamamilə çıxılmaz vəziyyətdədir. Hər şeyə döyüş meydanında qərar verildiyi bir vəziyyət.

***Tərcümə etdi: Elçin Bayramlı***

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

Son səhifə

28 oktyabr

# “Barselona”nın futbolçusu “Yuventus”a keçir?



***İspaniyanın “Barselona” klubunun futbolçusu Ansu Fati karyerasını İtaliyada davam etdirə bilər. “Calcio Mercato” xəbər verir ki, 18 yaşlı hücumçu ilə “Yuventus” maraqlanır.***

Turin təmsilçisi yay transfer dönəmində gənc oyunçu üçün Kataloniya klubuna 120 milyon avro təklif etməyə hazırlaşır. Qeyd edək ki, Ansu Fati cari mövsüm La Liqada 5 oyunda meydanda olub. O, 4 qol və 1 məhsuldar ötürmə ilə yadda qalıb.

# “Red Bull Racing”: Maks Ferstappenin Ermənistan fonduna ianə etməsi barədə məlumatlar həqiqətə uyğun deyil



Ermənilərin tarixən öz xislətlərinə uyğun olaraq yaydıqları daha bir yalanın üstü açılıb. Bir neçə gün əvvəl Ermənistan mətbuatında Formula 1 üzrə dünya çempionatında çıxış edən “Red Bull Racing” komandasının niderlandlı pilotu Maks Ferstappenin guya erməni hərbi qulluqçularının sığorta fonduna ianə etməsi ilə bağlı yazılar dərc olunmuşdu.

AZƏRTAC “RacingNews365” nəşrinə istinadla xəbər verir ki, komanda rəhbərliyi bu məlumatın həqiqəti əks etdirmədiyini açıqlayıb. Klub rəhbərliyinin açıqlamasında M.Ferstappenin bu fondu heç tanımadığı və hər hansı ianə etmədiyini təsdiqləyə biləcəkləri bildirilib.

# Koronavirusdan daha yaxşı qoruyan mövsüm meyvələri

Bəzi mövsümi meyvələri, o cümlədən xurma, heyva, üzüm və s. orqanizmin koronavirusdan müdafiəsini artırır. AZƏRTAC bu barədə “MedikForum” saytına istinadla məlumat yayıb.

Diyetoloqlar koronavirus və tənəffüs infeksiyaları hallarının artdığı dövrdə sağlam qidalanmağa üstünlük verməyi tövsiyə edirlər. Faydalı məhsullar, təbii ki, koronavirusu müalicə eləmir, lakin onlardan istifadə etdikdə orqanizmin immuniteti artır, xəstəliklərə qarşı müqaviməti güclənir. Yaşlı adam orta hesabla gün ərzində 300 qram tərəvəz və 200 qram meyvə yeməlidir. Ciddi pəhriz saxlamaqdansa, gündə 5-6 dəfə hissə-hissə yemək orqanizm üçün daha faydalıdır.



Mütəxəssislər şirniyyat məmulatlarından az istifadə etməyi məsləhət görürlər. Onların fikrincə, şirniyyat sevənlər armud və gavalıya üstünlük verməlidirlər. Bəzi payız meyvələrinin koronavirusa qarşı faydalı olması vurğulanır. Onların sırasında xurma, heyva, zoğal, üzüm, innab, çaytikanı daxildir. Bundan əlavə, immuniteti gücləndirmək üçün gün ərzində beş qoz yemək məsləhətdir.

# “Bakcell” Qarabağda ən sürətli mobil şəbəkə quraşdıracaq




“Bakcell” şirkəti özünün yüksəkkeyfiyyətli və ən sürətli mobil şəbəkəsini işğaldan azad olunmuş torpaqlarımıza doğru genişləndirəcək.

Torpaqlarımızın düşməndən təmizlənməsinin ardınca “Bakcell” böyük qürur hissi ilə Azərbaycan Respublikasının bütün ərazisində üstün müştəri təcrübəsi və ən yüksəkkeyfiyyətli mobil rabitə xidmətləri göstərməyə davam edəcək. Müvafiq dövlət qurumları ilə razılaşdırmaqla “Bakcell” işğaldan azad olunmuş ərazilərdə dayanıqlı mobil rabitə infrastrukturunun qurulmasına başlayacaq.

Bu günlərdə “Bakcell” cəbhəyanı zonalar daxil olmaqla bütün ölkə ərazisində yüksəkkeyfiyyətli mobil rabitəni təmin etmək üçün şəbəkənin optimallaşdırılmasını və 24 saat ərzində nəzarət işlərini həyata keçirir. Hazırda cəbhəyanı ərazilərdə fəaliyyət göstərən səyyar baza stansiyaları sayəsində “Bakcell” burada kəsintisiz mobil rabitə xidməti göstərir.

Bütün sahələrdə Ordumuza və xalqımıza dəstək olan “Bakcell” şirkəti cəbhədə Ermənistanın təcavüzünün qarşısının alınması və işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi uğrunda şücaətlə irəliləyən Ordumuza dəstək üçün Silahlı Qüvvələrə Yardım Fonduna 1 milyon 500 min manat məbləğində vəsait köçürüb, digər sosial məsuliyyət layihələrinin icrasına başlayıb.

Xatırladaq ki, 2017-ci ildə şirkət Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası tədbirlərinə qoşularaq orada mobil rabitə şəbəkəsini təkmilləşdirib. Bu təkmilləşdirmə işləri çərçivəsində ilkin mərhələdə yeni baza stansiyası qurulub. Daha sonra “Bakcell” şirkəti Cocuq Mərcanlı sakinləri üçün xüsusi tarif hazırlayıb. Rəşadətli Ordumuzun zəfər xəbərlərini səbirsizliklə gözləyirik. Qarabağ Azərbaycandır!

# Zəfər bayrağı ucalacaq!

Müzəffər ordunun çevik əsgəri,  
Döyüş cəbhəsində göstər hünəri.  
Vətən torpağından qov düşmənləri,  
Paşinyan qəlbinə çəkilsin qoy dağ.  
Azərbaycanın yurdudu Qarabağ!...  
Çək qoşunu Qarabağdan Paşinyan,  
Əyləncəli xülyalardan sən oyan.  
Əl çək mənfur sifətindən tökmə qan,  
Öz xalqının qeydinə qal qurumsaq.  
Azərbaycanın yurdudur Qarabağ!..  
Hər xalq üçün doğmadır ata ocağı,  
Hər kəs üçün əzizdir ana qucağı.  
Düşməni pay olmaz elin bucağı,  
Erməni özünü sayırsan axmaq.  
Azərbaycanın yurdudur Qarabağ!...  
Biz dözdük 30 il sənin nazına,  
İndi sən qulaq as Xan avazına.  
Tar-saz çalınacaq sənin yasına,  
Yerin cəhənnəmdə hazırdı alçaq.  
Azərbaycanın yurdudur Qarabağ!...  
Ali Baş Komandan qərarı qəti,  
Azərbaycan ordusunun qüdrəti.  
Düşməni məhv edən cəbhə heyəti,  
Zəfər bayrağını tez ucaldacaq,  
Azərbaycanın yurdudur Qarabağ!...

***Mürsəlova Ofelya Mürsəl qızı, ADPU-nin sabiq müəllimi***



**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600